DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (319) / FEVRAL 2018-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ ANIM MƏRASİMİNDƏ İŞTİRAK EDİB




1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etmişlər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirmişdir.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoymuşlar.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak etmişlər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzmüşlər.

**BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA İRANIN MƏDƏNİYYƏT VƏ İSLAMİ ƏLAQƏLƏR TƏŞKİLATININ SƏDRİNİ QƏBUL EDİB**



Səh. 2

**“AZƏRBAYCANDA DÖVLƏT-DİN MODELİ XALQIMIZIN MİLLİ MARAQLARINA YÖNƏLİB”**




Səh. 4

**Azərbaycanın dinlər və sivilizasiyalararası dialoqa töhfəsi beynəlxalq konfransda yüksək qiymətləndirilib**



Səh. 9

# Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək üçün Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaratsın.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin Azərbaycan İlahiyyat İnstitutunun strukturuna daxil edilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi:

3.1. iki ay müddətində Azərbaycan İlahiyyat İnstitutunun nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. Azərbaycan İlahiyyat İnstitutunun bina ilə təmin edilməsi üçün iki ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətinin maliyyələşdirilməsi və texniki təminatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

4.6. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 fevral 2018-ci il.

# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"ni "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 674-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481; 2005, № 5, maddə 403; 2008, № 3, maddə 175, № 11, maddə 970; 2009, № 7, maddə 533, № 11, maddə 881, № 12, maddə 983; 2011, № 2, maddə 85, № 12, maddə 1138; 2012, № 11, maddə 1110; 2013, № 2, maddə 113; 2014, № 4, maddə 367, № 11, maddə 1416) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 7.9-5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"7.9-5. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, dini mərkəz tərəfindən vətəndaşların təhsil almaq üçün xarici ölkələrin dini tədris müəssisələrinə göndərilməsinə, dini tədris müəssisələri tələbələrinin və müəllimlərinin, habelə din xadimlərinin və mütəxəssislərinin mübadiləsinə razılıq verilməsi;".

2. 7.10-3-cü bəndə "vətəndaşlığı olmayan şəxslər" sözlərindən sonra "(dini mərkəz tərəfindən dəvət edilmiş din xadimləri istisna olmaqla)" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 7.10-14-cü bənd əlavə edilsin:

"7.10-14. Qafqaz Müsəlmanları İdarəsinin müraciəti əsasında xaricdə dini təhsil almış Azərbaycan Respublikası vətəndaşlarının islam dininə aid ayin və mərasimlərin aparılmasına buraxılması üçün razılıq verilməsi;".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 fevral 2018-ci il.

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA İRANIN MƏDƏNİYYƏT VƏ İSLAMİ ƏLAQƏLƏR TƏŞKİLATININ SƏDRİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 23-də İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkamanı qəbul edib.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin xalqlarımızın əsrlər boyu malik olduğu mədəni, tarixi bağlantılara söykəndiyini qeyd edib. "Biz bu tarixi və mədəni irsə çox diqqətlə yanaşırıq", - deyən Birinci vitse-prezident bu gün dövlətlərimiz və xalqlarımız səviyyəsində, ölkələrimiz arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan əlaqələrin yaradılmasından məmnunluğunu bildirib. Son beş il ərzində dövlət başçılarının 10 görüşünün keçirilməsini ikitərəfli münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirən Azərbaycanın Birinci vitse-prezidenti bu görüşlərin əməkdaşlığımızın möhkəmlənməsi işinə öz töhfəsini verdiyini deyib və qeyd edib ki, əlaqələrimiz bir çox sahələri, o cümlədən iqtisadiyyat, nəqliyyat və əlbəttə, çox mühüm olan mədəniyyət sahələrini əhatə edir. Birinci vitse-prezident Mehriban Əliyeva keçən il İranda Azərbaycan mədəniyyət günlərinin, həmçinin 2017-ci ildə ölkəmizdə elan olunmuş "İslam Həmrəyliyi İli" çərçivəsində "Azərbaycan İslam mədəniyyətinin incisidir" adlı fotosərginin uğurla keçirilməsinin mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğulayıb. İranın mədəniyyət günlərinin də ölkəmizdə yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə edən Birinci vitse-prezident İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkamanın Bakıda İran kinosu günlərinin keçirilməsi ilə əlaqədar ölkəmizə səfərinin də uğurlu keçəcəyinə ümid etdiyini bildirib.

Ötən il Azərbaycan Respublikasının İranda mədəniyyət günlərinin ən yüksək səviyyədə keçirilməsi üçün İran tərəfinin bütün səylərini əsirgəmədiyini deyən Abuzər İbrahimi Türkaman Azərbaycan tərəfinin ölkəmizdə İran kinosu günlərinin təşkil olunması üçün hər cür şərait yaratmasını yüksək qiymətləndirib. O qeyd edib ki, ölkələrimiz arasında əlaqələr mədəni-tarixi bağlılıqlara əsaslanır və bu gün bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Görüşdə bu il Naxçıvanın İslam mədəniyyəti, öz növbəsində, Təbrizin İslam turizmi paytaxtları elan olunması ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edilib, mədəniyyət və turizm sahəsində müxtəlif layihələrin həyata keçirilməsi üçün yaxşı imkanların olduğu bildirilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ 2017-Cİ İLİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN KOLLEGİYA İCLASI KEÇİRİLİB

Fevralın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2017-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.

İclasda Kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iclası giriş sözü ilə açaraq 2017-ci ilin ümumilikdə ölkəmiz üçün uğurlu olduğunu, bir çox sahələrdə nailiyyətlərə imza atıldığını qeyd edib, "İslam Həmrəyliyi İli" çərçivəsində həyata keçirilən tədbirlərə toxunub. Bu istiqamətdə DQİDK-nın Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə həm ölkə daxilində, həm də xaricində həyata keçirdiyi çoxsaylı tədbirlərdə Azərbaycanın İslam dünyasında gedən proseslərdə öz mövqeyini nümayiş etdirdiyini vurğulayıb, İslam həmrəyliyindən, onu zəruri edən şərtlərdən, bu ideyanın bütövlükdə dünyada sülh, əmin-amanlıq və əməkdaşlığa müsbət təsir göstərdiyindən bəhs edib.

Hesabat ili ərzində dini sahədə bir sıra məsələlərin müsbət həllinə nail olunduğunu bildirən M.Qurbanlı dövlət-din münasibətlərinin inkişaf etdirilməsi, cəmiyyətin maarifləndirilməsi, Azərbaycanın tolerantlıq ənənələrinin təbliği və təşviqi, dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinin dəstəklənməsi, radikal cərəyan və təriqətlərin qanunazidd əməllərinin aşkarlanması ilə bağlı tədbirlər görüldüyünü deyib. Dindən sui-istifadə hallarının qarşısının alınması, din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılması istiqamətində qabaqlayıcı, profilaktik və inzibati tədbirlər həyata keçirilib.

Prezident İlham Əliyevin müvafiq Fərman və Sərəncamı ilə DQİDK–nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasına diqqət çəkən Dövlət Komitəsinin sədri bunları dövlət başçısının milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə verdiyi yüksək qiymət kimi dəyərləndirib. O, qurumların yaradılması ilə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr və hədəflərin qoyulduğunu diqqətə çatdırıb.

İclasda gündəliyə uyğun olaraq, DQİDK-nın 2017-ci ildəki fəaliyyəti ilə əlaqədar Əliheydər Zülfüqarovun məruzəsi dinlənilib. Şöbə müdiri bildirib ki, ötən il ərzində respublikada dini durumun dərindən öyrənilməsi, dini proseslərin izlənilməsi, əsas tendensiyaların müəyyənləşdirilməsi, radikal dini cərəyanların fəaliyyətinin qarşısının alınması, ölkədə dini vəziyyətlə bağlı informasiya fondunun genişləndirilməsi, dini qurumlarla əməkdaşlığın qurulması ilə bağlı işlər davam etdirilib və əlamətdar dini mərasimlərlə bağlı müvafiq tədbirlər həyata keçirilib.

Ə.Zülfüqarov məruzəsində Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2017-ci il tarixli Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dair Tədbirlər Planına uyğun olaraq, Dövlət Komitəsinin həyata keçirdiyi tədbirlər barədə geniş məlumat verib. Bildirib ki, Dövlət Komitəsi müvafiq qurumlarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə 200-dən artıq ölkə və beynəlxalq əhəmiyyətli tədbirə təşkilatçılıq edib. Həmçinin vurğulayıb ki, 2017-ci ildə Dövlət Komitəsi müvafiq dövlət qurumları ilə birgə hazırlanan Tədbirlər Planının həyata keçirilməsi, dini maarifləndirmə sahəsində tədbirlərin təşkil edilməsi istiqamətində fəaliyyətini davam etdirib, aidiyyəti qurumlarla birlikdə ümumilikdə 600-ə yaxın tədbir həyata keçirib. Onun sözlərinə görə, maarifləndirmə işinin təşkili üçün dini icmaların təqdim etdiyi 149 layihə icra olunub.

Daha sonra DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədovun dini məzmunlu ədəbiyyatın idxal və ixracı, nəşri barədə çıxışı dinlənilib. N.Məmmədov bildirib ki, 2017-ci il ərzində Dinşünaslıq ekspertizası şöbəsinə daxil olmuş müraciətlər əsasında 1540 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 63 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Qeyd edib ki, eyni zamanda, hesabat dövrü ərzində ölkədə nəşr olunmaq məqsədilə dinşünaslıq ekspertizasına təqdim edilmiş 210 adda dini ədəbiyyata baxılaraq, onlardan 4-nün çapı məqsədəuyğun sayılmayıb, 206 adda dini ədəbiyyatın çapına razılıq verilib. Hesabat dövründə dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarına nəzarət markası ilə markalanması işinin təşkili istiqamətində işlər davam etdirilib. Belə ki, 2017-ci ildə 601 adda (765 151 ədəd), 2018-ci ilin yanvar-fevral ayları ərzində 34 adda (45540 ədəd) dini təyinatlı ədəbiyyata yapışdırılması üçün nəzarət markaları verilib.



Bunlarla yanaşı, 2017-ci ildə hüquq-mühafizə orqanlarından dinşünaslıq ekspertizasına göndərilmiş 2106 adda dini təyinatlı ədəbiyyata və məmulat materiallarına baxılaraq, onlardan 99-nun zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edildiyi müəyyənləşdirilib.

Daha sonra çıxış edən Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev hesabat dövrü ərzində illik iş planlarına uyğun olaraq dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, dini radikalizmə qarşı müvafiq tədbirlərin həyata keçirilməsi, eləcə də maarifləndirmə işlərinin təşkili istiqamətlərində görülmüş işlərdən danışıb.

Vüqar Babayev bu istiqamətdə dini maarifləndirmə tədbirlərinin keçirildiyini, din xadimlərinin biliklərinin artırılması üçün muxtar respublika məscidlərində təkmilləşdirmə kursları təşkil edildiyini, dini təyinatlı ədəbiyyatların və başqa məlumat materiallarının yayılmasına nəzarətin təmin edildiyini, həmçinin, məzhəb ayrı-seçkiliyi və ifrat məzhəbçilik təbliğ edən dini ədəbiyyatların yayılmasının qarşısının alındığını qeyd edib.

2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması ilə əlaqədar muxtar respublikada il ərzində müxtəlif tədbirlərin baş tutduğunu deyən direktor ötən ilin dekabrında Naxçıvan şəhərində "Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfransın keçirildiyini bildirib. O, həmçinin Naxçıvan MR Ali Məclisi sədrinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə Agentliyin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradıldığını diqqətə çatdırıb.

DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli çıxışına bölgədəki dini durum barədə məlumat verməklə başlayıb. Bildirib ki, bölgəyə daxil olan rayonlarda 106 məscid fəaliyyət göstərir, 2-si qeyri-islam təmayüllü olmaqla 57 dini icma dövlət qeydiyyatına alınıb. Şöbənin fəaliyyətində dini maarifləndirmə işinin önəmli yer tutduğunu qeyd edən Rəhim Rəhimli ötən dövr ərzində şöbənin birbaşa təşkilatçılığı, eləcə də əsas iştirakı ilə 40-dan çox tədbir keçirildiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxışında ölkəmizin zəngin multikultural dəyərlərindən söz açıb. Azərbaycan Respublikasının multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdən biri olduğunu bildirib. Azərbaycanda etnik-mədəni müxtəlifliklərin multikulturalizm siyasəti vasitəsilə uğurla, səmərəli şəkildə tənzimləndiyini qeyd edib. Azərbaycanda multikulturalizm siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan Etibar Nəcəfov bu uzaqgörən siyasətin uğurla həyata keçirilməsinin Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu deyib.

Şöbə müdiri bildirib ki, multikulturalizmin Azərbaycan Respublikasının dövlət siyasəti olmasının mühüm təzahürlərindən biri də ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasındadır. Etibar Nəcəfov Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə Mənəvi Dəyərlərin Təbliği Fondu və 09 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının ölkəmizdəki dövlət-din modelinin təkmilləşdirilməsinə mühüm töhfə olduğunu deyib. Şöbə müdiri, eyni zamanda, ölkədə sabitliyin qorunması və baş verə biləcək mənfi halların qarşısının alınması istiqamətində dini maarifləndirmənin genişləndirilməsi, dini-mənəvi dəyərlərin qorunması və inkişafı məqsədilə təbliğatın gücləndirilməsi, dini icmaların fəaliyyətinin dəstəklənməsi, eləcə də bölgələrdə şöbələrin fəaliyyətinin genişləndirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürüb. O, Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi ilə əlaqədar təbliğat və təşviqat işlərinin genişləndirilməsi, eyni zamanda diqqətin artırılması barədə də fikirlərini səsləndirib.

Daha sonra Dövlət Komitəsinin 2018-ci il üçün fəaliyyət planı müzakirə olunub. Qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MODELİ XALQIMIZIN MİLLİ MARAQLARINA YÖNƏLİB"

*Fevralın 20-də Horadiz şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Füzuli Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib.*



Hüquq-mühafizə orqanlarının rəhbərlərinin, YAP Füzuli rayon təşkilatının fəallarının, dini icma sədrlərinin, din xadimlərinin, ilahiyyatçıların, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi göstərilib.

Füzuli RİH başçısı Alı Alıyev çıxış edərək, konfransın və sənədli filmin əhəmiyyətinə toxunub, ölkəmizdə həyata keçirilən dövlət-din siyasətindən, milli-mənəvi dəyərlərin, dini tolerantlıq mühitinin qorunub saxlanılmasından danışıb. Bildirib ki, respublikamızın digər bölgələrində olduğu kimi Füzuli rayonunda da dini durum sabitdir.



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Azərbaycan İslam dünyasının bir parçasıdır. Cənubi Qafqazın ən qədim məscidləri Azərbaycan ərazisində inşa edilib. İslami dəyərlər Azərbaycan xalqının adət-ənənələrində, psixologiyasında, dünya görüşündə dərin iz buraxıb. Biz bu dəyərlərimizi qoruyaraq nəsildən nəslə ötürə bilmişik.

M.Qurbanlı ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən yüksək diqqətdən danışarkən deyib: "Azərbaycan dövlət müstəqilliyini bərpa edərkən 17 məscid fəaliyyət göstərirdisə, hazırda ölkədə 2200-dən çox məscid var. Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, İslam bizim milli-mənəvi dəyərimizdir. Prezident İlham Əliyev də milli-mənəvi dəyərlərimizə xüsusi diqqətlə yanaşır. Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində Şuşa şəhərindəki Gövhər ağa məscidinin eynisinin tikilməsi Prezidentin dinə olan münasibətinin bariz nümunəsidir".

Bildirib ki, İslam dünyası böyük coğrafi ərazini əhatə edir. Dünyanın quru hissəsinin 19 faizi müsəlman ölkələrinin payına düşür. 57 İslam ölkəsi bu gün İslam Əməkdaşlıq Təşkilatında birləşib. Hazırda 160 ölkədə İslam icmaları fəaliyyət göstərir. Dünya əhalisinin 25 faizi İslam dininin daşıyıcısıdır. Bu gün də İslamın yayılmasından, güclənməsindən qorxuya düşən qüvvələr müsəlman ölkələri içərisində fitnə-fəsad törədir, onları zəifləməyə çalışırlar. Siyasi liderlərin, dövlət başçılarının ən böyük vəzifələrindən biri də məhz vacib məsələlərlə bağlı vaxtında qərarlar qəbul etməkdir. Bu baxımdan Prezident İlham Əliyev tərəfindən ötən ilin "İslam Həmrəyliyi İli" elan edilməsi zamanın çağırışına uyğun qərardır.

Komitə sədri dini radikalizmin doğura biləcəyi mənfi nəticələrdən də danışıb. Bildirib ki, dini siyasiləşdirmək, dindən sui-istifadə etmək istəyənlərə, İslam adı altında ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərənlərə, gəncləri dini-radikal qruplara cəlb edərək, onları ölkədən kənara aparıb silahlı dəstələrə qoşmağa çalışanlara aramızda yer olmamalıdır. Bütün cəmiyyət bununla həm ideoloji, həm siyasi, həm də hüquqi baxımından mübarizə aparmalıdır.

"Dövlət-din münasibətlərində hər bir məsələni qanunlar tənzimləyib. Bu isə vətəndaşların təhlükəsizliyinin qorunmasına xidmət edir. İctimai-siyasi baxımdan Azərbaycanda vəziyyət sabitdir. Ölkəmizdə kənar qüvvələrin hər hansı fitnə-fəsad törətməsi imkanları məhduddur. Hüquq-mühafizə orqanları bununla əlaqədar səmərəli fəaliyyət göstərir. Biz kənardan kimlərinsə gəlib dinimizə müdaxilə etməsinə yol verməyəcəyik", – deyə Komitə sədri vurğulayıb.

Konfransın ikinci hissəsi "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam edib.

YAP-ın rayon Gənclər Təşkilatının üzvlərinin, orta məktəb direktorlarının təlim-tərbiyə üzrə müavinlərinin, ümumtəhsil məktəblərində çalışan psixoloq və "Həyat bilgisi" fənnini tədris edən müəllimlərin iştirak etdiyi tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Füzuli RİH başçısının müavini, İctimai–siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülbahar Eyvazova çıxış ediblər. Çıxışlarda dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, cəmiyyətin, xüsusən gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin qarşısının alınması barədə müzakirələr aparılıb.

# Mübariz Qurbanlı Horadizdə vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Fevralın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Horadiz şəhərində Ağcabədi, Ağdam, Füzuli, Laçın və Tərtər rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək qoyublar.



Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar Dövlət Komitəsinin sədri tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.

# Dövlət Komitəsində görüşlər

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 1-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib. M.Qurbanlı qonağa ölkəmizdəki mövcud tolerantlıq mühiti və Komitənin fəaliyyəti barədə ətraflı məlumat verib.



Nümayəndəliyin rəhbəri xanım Elena Aymone Sessera BQXK-nın Azərbaycan nümayəndəliyinin fəaliyyəti barədə danışıb. Dövlət Komitəsi ilə işgüzar əməkdaşlığın qurulmasında, eləcə də birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

***

Fevralın 12-də DQİDK sədri Mübariz Qurbanlı Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Mübariz Qurbanlı ölkəmizdə mövcud olan tolerant və multikultural mühitdən söhbət açaraq bildirib ki, dövlətimizin din siyasətinin əsas sütunlarını milli-mənəvi dəyərlərimizin qorunması, dözümlülüyün, birgəyaşayışın təbliğ olunması təşkil edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan Dövlət Komitəsinin sədri xalqımızın ermənilərlə etnik-dini baxımdan heç bir probleminin olmadığını bildirib. Bu münaqişəyə baxmayaraq, Bakının mərkəzində erməni kilsəsinin qorunub-saxlanıldığını deyib. Mübariz Qurbanlı bu tolerantlığın müqabilində Ermənistan tərəfinin işğal altındakı torpaqlarımızda mədəniyyət abidələrimizi, o cümlədən məscidlərimizi dağıtdıqlarını təəssüflə qeyd edib.

Görüş zamanı iki ölkə arasındakı əməkdaşlıqdan bəhs edən Komitə sədri Roma Papası II İohan Pavelin, Papa Fransiskin Azərbaycana səfərlərinin ölkələrimiz arasında əlaqələrin inkişafına müsbət təsir göstərdiyini diqqətə çatdırıb.



Ölkəmizə ilk dəfə səfər etdiyini bildirən arxiyepiskop Paul Riçard Gallager cənab Prezidentimiz tərəfindən qəbul edilməsindən məmnunluğunu dilə gətirib, bir sıra mühüm görüşlər keçirdiyini bildirib. Qonaq son 20 ildə dövlətimizin katolik icmasına göstərdiyi qayğını, insanların mənəvi ehtiyaclarının ödənilməsinə yaradılan şəraiti yüksək qiymətləndirib. Humanitar sahədə əlaqələrin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mühüm rolunun olduğunu diqqətə çatdırıb.

***

Daha bir görüş isə fevralın 14-də Əfqanıstanın Azərbaycandakı səfiri Məhəmməd Tağı Xəlili ilə baş tutub. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan və Əfqanıstan arasındakı əlaqələrdən söz açaraq ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirib. O, rəhbərlik etdiyi qurumun vəzifələri və fəaliyyət istiqamətləri, ölkəmizdəki sabit dini durum barədə qonağı məlumatlandırıb.

Mübariz Qurbanlı Azərbaycanda tarixi-mədəni irsin dirçəldilməsinə, xüsusən də dini ibadətgahların əsaslı təmiri və yenidən qurulmasına diqqət yetirildiyini vurğulayıb. Eyni zamanda, İslam və qeyri-islam dini icmalarının fəaliyyətinə münbit imkanlar açılması, mütəmadi olaraq maliyyə vəsaitləri ayrılması da diqqətə çatdırılıb.

2017-ci ilin Azərbaycanda Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edildiyini deyən M.Qurbanlı ilin yekunlarına həsr edilmiş beynəlxalq konfransda bu istiqamətdəki fəaliyyətin növbəti il də davam etdirilməsi barədə qərar qəbul olunduğunu söyləyib.



Hər iki xalqı mədəniyyət, tarix və dini baxımdan birləşdirən bir çox məqamların olduğunu bildirən Məhəmməd Tağı Xəlili qarşılıqlı münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. Diplomat bu yaxınlarda Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılan Azərbaycan İlahiyyat İnstitutunu yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, yüksək ixtisaslı kadrların hazırlanması baxımından mühüm imkan kimi qiymətləndirib və yaxın gələcəkdə institutun imkanlarından yararlanmaqda maraqlı olduqlarını vurğulayıb.

***

Fevralın 17-də isə VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları ilə görüş keçirilib. Görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı layihənin əhəmiyyətindən danışıb, tələbələrə ölkəmizdə hökm sürən tolerantlıq mühiti, xalqımıza məxsus multikultural dəyərlər, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında məlumat verib.



Qış məktəbinin iştirakçıları ölkəmizlə tanışlıqdan, Azərbaycanda gördükləri multikultural, tolerant mühitdən məmnun olduqlarını qeyd ediblər.

***

DQİDK sədrinin müavini Səyavuş Heydərov fevralın 19-da Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu Markus Şox ilə görüşüb.



Görüş zamanı Səyavuş Heydərov Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasət nəticəsində ölkəmizdə inkişaf edən tolerant mühit barədə söz açıb, Azərbaycanda dinlərarası harmoniyanın yaradılmasına, dini konfessiyalar arasında əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyini diqqətə çatdırıb.

Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu Markus Şox ölkəmizdə multikulturalizm və tolerantlıq ideyalarının inkişaf etdirilməsi istiqamətində atılan addımları yüksək qiymətləndirib, Azərbaycanda almanlara aid tarixi-dini abidələrin qorunub saxlanılmasına və Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının fəaliyyətinə göstərilən davamlı dəstəyə və qayğıya görə minnətdarlığını ifadə edib.

Görüşdə, eyni zamanda xalqımızın tarixi və mədəniyyətində dərin iz qoymuş alman yaşayış məskənlərinin salınmasının 200 illiyinin ölkəmizdə qeyd olunması, bu münasibətlə Dövlət Komitəsi ilə birgə tədbirlərin keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

***

DQİDK-nın sədri Mübariz Qurbanlı fevralın 21-də Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralla görüşüb.

Dövlət Komitəsinin sədri Türkiyə-Azərbaycan arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərinin inkişafının əhəmiyyətini vurğulayıb. Ölkələrimizin digər sahələrdə olduğu kimi, din sahəsində də əlaqələrinin genişləndirilməsinin perspektivlərini diqqətə çatdırıb, iki ölkənin müvafiq qurumları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini dilə gətirib.

Söhbət zamanı Türkiyə səfiri Erkan Özoral Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanması baxımından önəmli addım kimi dəyərləndirib. Səfir gələcəkdə Azərbaycan və Türkiyənin müvafiq təhsil müəssisələri arasında əlaqələrin sistemli şəkildə qurulması, birgə əməkdaşlıq imkanları, eyni zamanda qarşılıqlı təcrübə mübadiləsinin təşkilinin əhəmiyyəti barədə danışıb.

***

Dövlət Komitəsinin sədri fevralın 23-də Azərbaycanda səfərdə olan İran İslam Respublikası Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Əbuzər İbrahimi Türkmən ilə görüşüb.

İki ölkə arasında münasibətlərin dinamik inkişaf etdiyini bildirən Dövlət Komitəsinin sədri dövlət başçılarının qarşılıqlı səfərlərinin və mötəbər tədbirlərin keçirilməsinin əlaqələrin yüksək səviyyədə olmasından xəbər verdiyini vurğulayıb. Azərbaycanla İran arasında bütün sahələrdə olduğu kimi, din və mədəniyyət sahəsində də səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Ötən il "İslam Həmrəyliyi İli" çərçivəsində ilk beynəlxalq konfransın "İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında" mövzusunda Tehranda keçirildiyini bildirən Komitə sədri tədbirin əhəmiyyətinə toxunub.

Səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirən Əbuzər İbrahimi din və mədəniyyət üzərində qurulan əlaqələrin daha da genişlənməsinin vacibliyindən danışıb.



Qeyd edək ki, görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov və İran İslam Respublikasının ölkəmizdəki Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi, eləcə də nümayəndə heyətinin digər üzvləri də iştirak ediblər.

***

Görüşlərin sonunda qonaqlara Sonda Dövlət Komitəsinin nəşri olan ölkəmizdəki dini tolerantlıq, multikulturalizm mühitindən və erməni vandalizmindən bəhs edən kitablar hədiyyə edilib.

# COCUQ MƏRCANLI MƏSCİDİNƏ KİTABLAR HƏDİYYƏ EDİLİB



Fevralın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı və Füzuli Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Alı Alıyev Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət ediblər. Daha sonra DQİDK-nın sədri Mübariz Qurbanlı, Füzuli RİH başçısı Alı Alıyev və Cəbrayıl RİH başçısı Kamal Həsənov, Komitənin əməkdaşları, həmçinin bir qrup din xadimi Prezident İlham Əliyevin göstərişi ilə Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində tikilən məscidə gəlib, burada respublikamızın ərazi bütövlüyü uğrunda həlak olanların ruhuna dua oxuyublar. Komitə sədri dindarlarla söhbətində Cocuq Mərcanlıda Şuşa şəhərindəki Gövhər ağa məscidinin eynisinin tikilməsini Prezidentin dinə olan münasibətinin bariz nümunəsi kimi qiymətləndirib. Qeyd edib ki, Şuşa məscidinin eynisinin tikilməsi rəmzi məna daşıyır. Cocuq Mərcanlı kəndi kimi digər işğal olunmuş torpaqlarımızı da azad edilərək, Qarabağda olan bütün abidə və ibadət yerlərimiz bərpa olunacaq.

Məscidə Dövlət Komitəsi tərəfindən nəşr edilən kitablar da hədiyyə edilib.

# "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda seminar-müşavirə

Fevralın 16-da İmişlidə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda seminar-müşavirə keçirilib.

Din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan tədbiri giriş sözü ilə açan İmişli RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Hüseyn İbrahimov rayondakı dini durum, dini icmaların fəaliyyəti barədə məlumat verib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı isə öz çıxışında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu din siyasətindən danışıb. Qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib.



Hazırda nümunəvi dövlət-din münasibətlərinin sağlam təməllər üzərində inkişaf etdiyini bildirən S.Salahlı bu sahəyə göstərilən diqqət və qayğıdan bəhs edib. Vurğulayıb ki, ölkəmizdə dini ibadətgahlar dövlət vəsaiti hesabına əsaslı şəkildə bərpa edilir, yeniləri tikilir. Mütəmadi olaraq dini icmalara maliyyə vəsaitləri ayrılır.

Bölgədəki dini durumu və nüfuzlu din xadimlərinin fəaliyyətini yüksək qiymətləndirən sədrin birinci müavini dindarların ölkənin quruculuğunda, müdafiəsində, cəmiyyətin mənəvi-ruhi tarazlığının saxlanmasında böyük rola malik olduqlarını dilə gətirib. İslamın fundamental dəyərlərinin geniş təbliğ edilməsinin önəminə toxunan Səyyad Salahlı dini radikalizm və onun fəsadları barədə də danışıb. O, radikalizmə qarşı mübarizədə gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov dini radikalizmə qarşı mübarizənin metodologiyası barədə danışıb. Ə.Zülfüqarov dini radikalizmə qarşı mübarizədə maarifçiliyin əsas silah olduğunu diqqətə çatdırıb. O, dini maarifləndirmənin gücləndirilməsi, dinimizin düzgün şəkildə insanlara aşılanmasının radikalizmin qarşısının alınmasında ən güclü vasitə olduğunu bildirib.

İmişli şəhər "Cümə" məscidi dini icmasının sədri və axundu Adıgözəl Başirov də çıxış edərək vurğulayıb ki, milli-mənəvi dəyərlərimizə, tarixi-dini abidələrimizə, dini icmaların və din xadimlərinin fəaliyyətinə göstərilən qayğının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu müsbət dinamika Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.

Seminar-müşavirənin sonunda qeyd olunub ki, maarifləndirmə məqsədilə keçirilən və gənclərin dini radikalizmlə mübarizədə fəaliyyətlərinin gücləndirilməsi baxımından bu cür tədbirlər gələcəkdə də davam etdiriləcək.

# DAXİLİ QOŞUNLARIN ZABİT HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

Fevralın 16-da Daxili İşlər Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) arasında təsdiqlənmiş Tədbirlər Planına əsasən Daxili Qoşunların zabit heyəti ilə görüş keçirilib.

Görüşdə çıxış edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları, xüsusilə bu sahədə reabilitasiya işlərinə üstünlük verilməsi barədə ətraflı məlumat verib. Natiq vurğulayıb ki, dini radikalizmlə mübarizənin effektivliyinin artırılması üçün maarifləndirmə, preventiv və profilaktik xarakterli tədbirlərə üstünlük verilir. Dövlət Komitəsinin sədr müavini onu da bildirib ki, DQİDK bu istiqamətdə digər dövlət qurumları, eləcə də hüquq-mühafizə orqanları ilə koordinasiyalı şəkildə tədbirlər həyata keçirir.

Sədr müavini dünyada gərginliyin artmasına və qanlı toqquşmaların baş verməsinə baxmayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi və dini sabitliyin mövcud olduğunu vurğulayıb. Onun sözlərinə görə, multikulturalizmin Azərbaycan modeli dünya ölkələrinin əksəriyyəti üçün bir təcrübədir və ölkəmiz bu siyasətlə dünya təhlükəsizlik sisteminə, dialoqa və əməkdaşlığa öz töhfəsini verir.

Sonda tədbir iştitrakçılarının sualları cavablandırılıb.

# HƏRBİ HİSSƏDƏ "DİNİ RADİKALİZMƏ QARŞI MÜBARİZƏ" MÖVZUSUNDA TƏDBİR BAŞ TUTUB

Fevralın 23-də Abşeron rayonundakı "N" saylı hərbi hissədə "Dini radikalizmə qarşı mübarizə" mövzusunda tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov, hərbi hissə komandirinin Təlim-tərbiyə işləri üzrə müavini Mehman Kərimov, hərbi qulluqçular və şəxsi heyət iştirak edib.

Tədbir Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə şəkilmiş "Şəhadət" sənədli filminin nümayişi ilə başlayıb.

Daha sonra Mehman Kərimov çıxış edərək sənədli filmin əhəmiyyətinə toxunub. Gəncləri radikal dini cərəyanların təsiri altına düşməkdən qorumağın, onların milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyini qeyd edib.

DQİDK sədrinin müavini Səyavuş Heydərov "Şəhadət" filminin süjet xəttində göstərilən, Vətənimiz uğrunda canından keçmiş şəhidlərimizdən və qeyri-qanuni hərbi birləşmələrin tərkibində vuruşaraq öldürülən insanların acı taleyindən bəhs edib. O, gənclərin ayıq-sayıqlığının artırılmasının və müəyyən bilgilərə yiyələnmələrinin, eyni zamanda onların radikalizmə qarşı mübarizədə fəal olmalarının vacibliyini də diqqətə çatdırıb.

Tədbirin sonunda hərbçiləri maraqlandıran suallar cavablandırılıb.

# Dini radikalizm və ekstremizmə qarşı alternativ vasitə kimi vətənpərvərlik hissi gücləndirilməlidir

Fevralın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Sumqayıt Şəhər İcra Hakimiyyətinin (ŞİH) təşkilatçılığı ilə "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzusunda seminar-müşavirə keçirilib.



Seminar-müşavirədə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, eyni zamanda, bu qurumların Sumqayıt şəhəri, Abşeron, Xızı, Qobustan, Zəngilan və Qubadlı rayon strukturlarının məsul nümayəndələri, ziyalılar, dindarlar və ictimai fəallar iştirak ediblər.

Tədbirin əvvəlində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub.

Sumqayıt ŞİH başçısının müavini Teymur Səmədov çıxış edərək mövzunun aktuallığından danışıb, eyni zamanda, Sumqayıt şəhərindəki dini durum barədə ətraflı məlumat verib.

DQİDK sədrinin müavini Səyavuş Heydərov tədbirin keçirilməsində əsas məqsədin Azərbaycanda dini radikalizmə və ekstremizmə qarşı mübarizə sahəsində görülən işlərin və qarşıda duran vəzifələrin müzakirəsi olduğunu bildirib. O, dini radikalizmi yaradan səbəblər və radikal cərəyanların törətdiyi fəsadlardan, dünyada, xüsusilə Yaxın Şərqdə dini radikalizm və ekstremizmin acınacaqlı nəticələrindən söz açaraq, dinin siyasiləşdirildiyi və ya siyasi oyunlar üçün alət olduğu ölkələrin böyük fəlakətlərlə üzləşdiyini bildirib.

Ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik, əmin-amanlıq, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulmasından da danışan S.Heydərov Azərbaycandakı multikultural və tolerant dəyərlərin bütün dünya üçün örnək olduğunu vurğulayıb.

Ölkə Prezidentinin Sərəncamı ilə təsis edilmiş Azərbaycan İlahiyyat İnstitutunun əhəmiyyətinə toxunan sədr müavini ali məktəbin yaradılmasını dövlət başçımızın dövlətçiliyə, milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər, yüksək ixtisaslı kadrların hazırlanmasına, eləcə də xalqımızın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılmasına verdiyi yüksək diqqətin daha bir nümunəsi adlandırıb.

Yeni yaradılan institutda dini yazarların yetişdiriləcəyini və araşdırmaların aparılacağını deyən S.Heydərov bildirib ki, burada məqsəd gəncləri yad dini ideologiyalardan qorumaqdır.

DQİDK sədrinin müavini sonda radikalizmə qarşı mübarizədə fəallığın vacibliyini diqqətə çatdırıb və daha məsuliyyətli olmağa çağırıb.

Tədbirdə həmçinin Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev mövzu ilə bağlı çıxış edib, təmsil etdikləri qurumların dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıblar.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin Sumqayıt üzrə səlahiyyətli nümayəndəsi Rauf Sərdarov dövlətimizin başçısına dindarlara göstərdiyi qayğı üçün təşəkkürünü bildirib. O, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətlərinin bu gün ölkəmizin inkişafına böyük töhfə verdiyini və dindarların daim məsələlərdə dövlətin yanında olduğunu söyləyib.

Seminar-müşavirə mövzu ətrafında fikir mübadiləsi ilə davam edib.

# XOCALI SOYQIRIMI: ERMƏNİ ŞOVİNİZMİNİN ƏSL MAHİYYƏTİ

XX əsrin ən qanlı hadisələrindən olan Xocalı soyqırımı tarixə görünməmiş vəhşiliyin, amansız işgəncələrin, insanlıqdan kənar hərəkətlərin baş verdiyi soyqırımı kimi daxil olmuşdur. Dəhşətli və qəddar faciələrdən hesab edilən Xocalı soyqırımı erməni-şovinist millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə siyasətinin davamı olmaqla bərabər, tarixin ən qanlı səhifələrindən biridir. Dinc əhaliyə divan tutulduğu, Xocalı şəhərinin yerlə-yeksan edildiyi bu soyqırımında 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 nəfər öldürülmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər şikəst olmuş, 1275 nəfər isə əsir götürülərək ağlasığmaz təhqir və işgəncələrə məruz qalmışdır. İnsanların diri-diri yandırıldığı, baş və qulaqlarının kəsildiyi, dərilərinin soyulduğu, körpə uşaqların gözlərinin çıxarıldığı bu amansız gecədə, hətta ruhsuz bədənlərə də işgəncə verilmiş, meyitlər təhqir olunmuşdur.




Erməni vandallarının Xocalıya hücum etmələrində, məhz bu şəhəri əsas hədəf olaraq seçmələrində məqsəd bu məntəqədən keçən Əsgəran-Xankəndi yolunun boşaldılması, azərbaycanlıların nəzarətində olan aeroportun ələ keçirilməsi, eyni zamanda Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət strateji əhəmiyyətli maneəni aradan qaldırmaq və bu şəhəri yer üzündən birdəfəlik silmək idi.

Bu cür vəhşiliyi törədənlərin, qeyri-insani hərəkətlərə yol verənlərin insan olduqlarına belə, şübhə yaranır. Lakin Milli Marşında "Torpaqlarımız işğal altında, bu torpaqları azad etmək üçün ölün, öldürün" sözlərinin ifadə olunduğu bir dövlətin belə vəhşiliyə imza atması o qədər də təəccüblü deyil.

Soyqırımından 26 il keçməsinə baxmayaraq, haqqında danışılan bu hadisələr hələ də ürəkləri sızladır, qəlbləri ağrıdır. Bunları nəzərə alaraq, həmin gecə baş verənləri öz gözləri ilə görən, canlı-canlı yaşayan insanların hansı hissləri keçirdiyini təsəvvür etmək o qədər də çətin deyil. O gecənin şahidlərinin söylədiklərinə görə, iki erməni əlləri ağaca arxadan bağlanmış hamilə qadının uşağının oğlan, yoxsa qız olması ilə bağlı mərcə girirlər. Qəpiyi havaya ataraq, qız çıxdı deyirlər. Nəticəni yoxlamaq üçün isə qadının qarnını yarıb uşağı çıxarırlar. Başqa şahidlər isə bunları deyirdilər: "Məni fevralın 17-də əsir götürdülər. Yolda qohumlarımın yarısını öldürdülər. Xankəndidəki həbsxanada isə dişlərimi zorla çəkdilər"; "Fevralın 27-də gözümün qabağında 60-a yaxın Xocalı sakininin başını kəsdilər. Onların arasında uşaq və qadınlar da var idi..."

Xocalı faciəsi erməni şovinistlərinin yalnız vəhşiliklərini, qaniçən olduqlarını deyil, eyni zamanda həyasızlıqlarını nümayiş etdirdi. Törətdikləri faciədən, qeyri-insani hərəkətlərdən utanmayan erməni vandallar fəxr və qürur hissi ilə Xocalıda baş verən hadisələrlə bağlı kitablar da nəşr etdirmişlər. Ermənilərin çox sevdiyi ideoloqlardan olan yazıçı-şair Zori Balayan "Ruhumuzun dirçəlişi", Livanda məskunlaşmış yazıçı-jurnalist David Xerdiyan isə "Xaç uğrunda" kitabında erməni qaniçənlərinin Xocalıda Azərbaycan türklərinə yaşatdığı müsibətləri fəxrlə qələmə almışlar.

Ermənistan prezidenti Serj Sarqsyan ingilis tədqiqatçısı və yazıçı Tomas de Vaala müsahibəsində demişdir: "Xocalıdan əvvəl azərbaycanlılar bizim zarafat etdiyimizi, onlara əl qaldırmayacağımızı düşünürdülər. Biz isə stereotipi dağıtmağı bacardıq". Onlar nəinki bu hadisəni böyük sevinc hissi ilə etiraf edir, bəzən də əksinə, bunu təkzib etməyə çalışırdılar. Ermənilər, hətta Xocalı soyqırımının azərbaycanlıların özləri tərəfindən həyata keçirildiyini də həyasızcasına iddia edirdilər. Lakin ermənilərin yalançı və əsassız iddialarına baxmayaraq, bütün dünya xalqımızın bu faciəsinə şahid oldu, Xocalı qırğınına dair dünya mətbuat orqanlarında müxtəlif yazılar dərc olundu.

XX əsrdə baş vermiş genosid və etnik təmizləmə hadisələrinin ən dəhşətlilərindən biri məhz Xocalı soyqırımıdır. Bu hadisələrdə hər hansı şəkildə iştirak etmiş şəxslər isə hələlik öz vicdanları qarşısında cavabdehdirlər, lakin vaxt gələcək və onlar tarix məhkəməsi qarşısında cavab verməli olacaqlar...

**"Cəmiyyət və Din"**

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ PREZİDENT SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYIBLAR

Azərbaycandakı dini konfessiyaların rəhbərləri aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə bağlı bəyanat qəbul ediblər.

Bəyanat qarşıdan gələn prezident seçkiləri ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsində (QMİ) keçirilən tədbirdə qəbul olunub.



Bəyanatda deyilir: “Biz, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dindarları - müsəlman, pravoslav, katolik, yəhudi, alban-udi və digər dini icmaların nümayəndələri ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə - prezident seçkiləri ilə əlaqədar bir araya gələrək aşağıdakıları bəyan etməyi öz vətəndaş borcumuz hesab edirik.

O Bir Olan Yaradan qarşısında məsuliyyət hissi ilə bildiririk ki, Vətənimizdə son illər ərzində həyatın bütün sahələrində baş verən tərəqqi - iqtisadiyyatımızın güclənməsi, daxili və xarici siyasətdəki uğurlar, insanların rifah halının yüksəlməsi, hərbi müdafiə qabiliyyətimizin artması ilə yanaşı, dini-mənəvi həyatı ehtiva edən dəyərli dəyişikliklər hər bir dindarın rəğbətinə səbəb olan məqamlardır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP qaz kəməri, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi kimi regional əhəmiyyətli iqtisadi layihələrin fonunda Allah evlərinin, ibadət məkanlarının nəfis şəkildə inşa və böyük məhəbbətlə bərpa olunan binaları, dindarların maddi-mənəvi tələbatlarına qayğı, milli-dini və ümumbəşəri dəyərlərə yüksək ehtiram ölkəmizin nüfuz və qüdrətinin təzahürləridir. Vətənimiz Azərbaycan beynəlxalq müstəvidə həm də mədəniyyətləri, dinləri bir araya gətirən, mənəvi-humanitar məqsədlər ətrafında cəm edən qabaqcıl bir ölkə kimi tanınır. Uca Allaha xoş gedən multikultural həyat tərzini yaşadan və təbliğ edən cəmiyyətimizin və onun liderinin O Bir Olan Yaradanımızın nəzərində dəyəri yüksəkdir. Hər bir mömin vətəndaş ölkəmizin həyatında bütün bu nailiyyətləri şükranlıqla qarşılayaraq, bunu Uca Yaradanın lütfü sayəsində dövlət rəhbərinin həyata keçirdiyi uğurlu siyasətin bəhrəsi kimi dəyərləndirir. Azərbaycanı parçalanmaq və müstəqil dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas etmiş Ulu Öndərimiz Heydər Əliyevin siyasi xəttinin davamçısı İlham Əliyev həzrətlərinin misilsiz əzm və səyləri sayəsində Azərbaycan xalqı müstəqilliyimizin əbədi və dönməzliyinə əmindir”.

Bəyanatda qeyd edilir ki, Azərbaycan siyasətinin avanqardında yer alan Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərində Prezident İlham Əliyevin namizədliyini irəli sürüb. Bu namizəd, əslində, bütün xalqın namizədidir. Azərbaycan dindarlarının ümumi mövqeyi prezident seçkilərində məhz İlham Əliyevin ən layiqli namizəd olmasından ibarətdir. Siyasi, iqtisadi, mənəvi böhranlarla üz-üzə qalan dünyada sabitlik, rifah və dini-mənəvi əmin-amanlıq məkanı olan ölkəmizin uğurları həqiqətən böyük dəyər kəsb edir. Biz, Azərbaycan dindarları, dini icmaların rəhbərləri müstəqil Azərbaycanda uğurlu din-dövlət siyasətinin bəhrəsi olan tolerant, multikultural, hüquqi-demokratik cəmiyyəti dünyanın istənilən nöqtəsində qürur hissi ilə təmsil etməkdən məmnunluq duyuruq. Azərbaycanın dünyada mədəniyyətlərarası və dinlərarası dialoqun mühüm mərkəzlərindən biri kimi tanınması və qəbul olunması dövlətimizin başçısının ardıcıl məntiqlə davamlı şəkildə həyata keçirdiyi dövlət siyasətinin real bəhrəsidir. Sivilizasiyaların, mədəniyyətlərin dialoq və əməkdaşlığına dair 2008-ci ildə “Bakı Prosesi”nin əsasının qoyulması, 2016-cı ilin “Multikulturalizm İli”, 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi Azərbaycan dövlətinin rəhbərinin siyasi iradə və humanist təfəkkürünün bariz nümunəsidir. Tərəqqipərvər dünya ictimaiyyəti bu istiqamətdə səyləri layiqincə qiymətləndirir, Azərbaycan xalqı isə buna görə öz liderinə minnətdardır.

“Biz, Azərbaycan dindarları, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqın rifahının artırılması yönündə böyük işlər görən, dünyada miqrant böhranı yaşandığı dönəmdə məcburi köçkün soydaşlarımızın dədə-baba torpaqlarına qayıdışı üçün misilsiz səylər göstərən, Cocuq Mərcanlı məscidi ilə işğaldan azad olunmuş torpaqlarımıza Böyük qayıdışın mənəvi təməlini qoyan liderimizin olmasını yüksək dəyərləndirir, Azərbaycan dövlətinin başçısı məqamında O Bir Olan Yaradana xoş gələn əməllər sahibinin olmasını səmimi qəlbdən diləyirik. Biz dünyəvi dövlət şəraitində dini-mənəvi dəyərlərin intibahı üçün atılan addımların, göstərilən misilsiz səylərin qarşısında yalnız və yalnız bu uğurlu xəttin davam və inkişafını dəstəkləyirik.

Biz, nadir dostluq, dinlərarası və məzhəblərarası qardaşlıq şəraitində yaşayan Azərbaycan dindarları, dövlətin diqqət və himayəsindən yararlandığımız, məscidlər, kilsə, sinaqoq və digər mənəvi məkanlarımızın dövlətin maddi, mənəvi yardımı ilə təmir, bərpa olunduğu ölkəmizdə dini-mənəvi intibahın davamını istəyirik. Biz, dindarlar hər zaman şükranlıqla dualar edirik ki, Vətənimizin taleyinə müdrik, mənəvi dəyərlərə önəm verən, bizlərə həyatın bütün sahələrində olduğu kimi, dini-mənəvi sahədə də fəxarət doğuran anlar yaşadan dövlət başçısı qismət olub. Zati-aliləri İlham Əliyevə verilən ən böyük dəyər Azərbaycan xalqının məhəbbət və etimadıdır.

Aprelin 11-də Azərbaycan Respublikasında keçiriləcək prezident seçkiləri, heç şübhəsiz ki, xalqımızın həyatında mühüm siyasi hadisə olmaqla, hər bir dindar üçün də taleyüklü, önəmli məqamdır. Biz bütün Azərbaycan dindarlarını uca mənəviyyat yolunun davamına – Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırırıq.

Qoy Uca Yaradan öz Lütf və Mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin!”, - deyə bəyanatda qeyd olunur.

Bəyanatı Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Azərbaycandakı Roma Katolik Kilsəsinin yepiskopu Vladimir Fekete, Azərbaycandakı Alban-Udi Xristian İcmasının sədri Robert Mobili imzalayıblar.

# Dövlət Komitəsinin Mətbuat Xidmətinin məlumatı



Fevralın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Daxili İşlər Nazirliyi (DİN), Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və yerli icra hakimiyyəti orqanı əməkdaşlarının birgə iştirakı ilə dini qurumların fəaliyyət qaydasının pozulması haqqında daxil olan məlumatın yoxlanılması məqsədilə Xəzər rayonu, Binə qəsəbəsi, Hövsan südçülük sovxozunda yerləşən qeyri-qanuni ibadət yerinə baxış keçirilib.

Baxış əsnasında qanunazidd qaydada dini ayinlərin icrası, eləcə də “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununun müvafiq maddələrinin pozulduğu aşkar edilib.

Bununla bağlı qeyd edilən ünvanda qeyri-qanuni olaraq dini ayin icra edən Bəşirov Valeh Əvəz oğlu barəsində DQİDK-nın əməkdaşları tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 515.0.2-ci maddəsi ilə inzibati xəta haqqında protokol tərtib edilərək aidiyyəti üzrə məhkəməyə göndərilib.

***

Fevralın 22-də DQİDK, DİN və DTX əməkdaşlarının birgə iştirakı ilə dini qurumların fəaliyyət qaydasının pozulması haqqında daxil olan məlumatın yoxlanılması məqsədilə Xəzər rayonu, Buzovna qəsəbəsi, N.Əliyev küçəsində yerləşən “İmam Zeynalabdin” adı ilə fəaliyyət göstərən qeyri-qanuni ibadət yerinə baxış keçirilib.

Baxış əsnasında qanunazidd qaydada dini ayinlərin icrası, eləcə də “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununun müvafiq maddələrinin pozulduğu aşkar edilib.

Bununla bağlı qeyd edilən ünvanda qeyri-qanuni olaraq dini ayin icra edən Əhmədov Fərhad Naid oğlu barəsində DQİDK-nın əməkdaşları tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 515.0.2-ci maddəsi ilə inzibati xəta haqqında protokol tərtib edilərək aidiyyəti üzrə məhkəməyə göndərilib.

# Azərbaycanın dinlər və sivilizasiyalararası dialoqa töhfəsi beynəlxalq konfransda yüksək qiymətləndirilib

Fevralın 26-27-də Vyanada KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi "Sülh üçün dinlərarası dialoq: Sülh içində birgəyaşayış və birgə vətəndaşlığı inkişaf etdirmək" mövzusunda Yüksək Səviyyəli Forum keçirilib. Forum və görüşlərdə Beynəlxalq Mərkəzin Direktorlar Şurası və Məşvərət Forumunun üzvləri ilə yanaşı, dünyanın əsas ənənəvi dinlərini təmsil edən dini liderlər, eləcə də elm, mədəniyyət və ictimai xadimlər, habelə siyasətçilərdən ibarət 200-dən çox tanınmış şəxs iştirak edib.

Beynəlxalq tədbirdə ölkəmizi Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Forumun ilk günü KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin baş katibi Faysal bin Muammar QMİ sədri şeyxülislam Allahşükür Paşazadənin təşkilatın Direktorlar Şurasına üzv seçildiyini elan edib, onun beynəlxalq qurumun rəhbər orqanında təmsil olunmasının bu təşkilatın fəaliyyətinə yeni töhfələr verəcəyini vurğulayıb. Qeyd edilib ki, doqquz nəfərdən ibarət Direktorlar Şurasında üç müsəlman, üç xristian, bir yəhudi, bir buddist və bir hinduist dini lider təmsil olunur. KAİCİİD tərəfindən belə bir qərarın qəbul edilməsi, Allahşükür Paşazadənin bu qurumun Direktorlar Şurasında təmsil olunması Azərbaycanın dövlət rəhbərliyinin dinlərarası həmrəylik, dinlər və sivilizasiyalararası dialoqun möhkəmləndirilməsində göstərdiyi səylərin nəticəsi kimi qiymətləndirilib.

Forumda çıxış edənlər dialoq və əməkdaşlığın inkişafı üçün dinlərarası platformanın inkişaf etdirilməsinin zəruriliyini vurğulayıblar. Bildirilib ki, müasir dövrdə dünyada münaqişələrin nizamlanmasında güc tətbiqini legitimləşdirmək üçün dindən sui-istifadə olunur və bu da öz növbəsində milli, regional və qlobal sabitlik üçün təhdidləri artırır. Buna görə də dini qurumlar, nüfuzlu din xadimləri və siyasətçilərin üzərinə sosial vəhdət, qarşılıqlı rəğbət və birgə vətəndaşlıq prinsiplərinin təbliğ olunmasında böyük öhdəlik düşür. Eyni zamanda, dinlərarası dialoqun gücləndirilməsində siyasətçilər və din xadimləri arasında sıx əməkdaşlıq tələb olunduğu kimi, dini qurumlar ilə beynəlxalq təşkilatlar arasında əməkdaşlığa da xüsusi diqqət yetirilməlidir.

Forumda, həmçinin insan və cəmiyyətlərin dini kimliyinin formalaşması üçün dini və dinlərarası təhsilin əhəmiyyəti qeyd edilib, bu istiqamətdə əldə olunmuş uğurlar və tədris proqramları, eləcə də ali təhsil ocaqları arasında əməkdaşlıq layihələri barədə təqdimatlar keçirilib, müzakirələr aparılıb.




Fevralın 27-də forum işini işçi qruplar, panellər və plenar iclasla davam etdirib. Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını tədbirdə iştirak edən tanınmış dövlət və din xadimlərinə çatdırıb.

Şeyxülislam çıxışında qeyd edib ki, bu gün bütün problemlərin fövqündə duran sülhün təmini və qorunması işində dövlət rəhbərlərinin, ictimai və dini liderlərin birgə əməkdaşlığı mütləq vacibdir. Tanrının xəlq etdiyi ən böyük dəyər insan həyatıdır və onun xilası ənənəvi dinlərin təlqin etdiyi humanist mənəvi dəyərlərdən, onların birgə əməkdaşlığı və dialoqundan keçir.

Müxtəlif dinləri və mədəniyyətləri təmsil edən insanların eyni cəmiyyətdə sülh içində birgəyaşayış və birgə vətəndaşlığı məsələsinə toxunan şeyxülislam bildirib ki, Azərbaycan bu sahədə nümunəvi ölkədir: "Təmsil etdiyim çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda multikulturalizm bizim həyat tərzimizdir. Ölkədə dövlət-din münasibətləri düzgün qurulub. BMT-nin dəstəklədiyi dəyərlərin sırasında mühüm yer tutan, vətəndaş cəmiyyəti və həqiqi demokratiyanın vacib elementi olan milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Azərbaycan Prezidenti İlham Əliyev etnik və dini müxtəlifliyi ölkəmizin milli sərvəti kimi dəyərləndirir".

Çıxışının yekununda şeyxülislam A.Paşazadə KAİCİİD təşkilatına bu yöndə göstərdiyi fəaliyyətində yeni nailiyyətlər arzulayıb.

Forum başa çatdıqdan sonra, fevralın 28-də KAİCİİD-in dünyanın bütün regionlarını və dinlərini təmsil edən 45 nəfərdən ibarət Məşvərət Forumunun növbəti illik iclası keçirilib. Martın 1-də isə QMİ sədri A.Paşazadənin də daxil olduğu 9 nəfərdən ibarət Direktorlar Şurasının toplantısında Mərkəzin gələcək iş planı və strategiyası tərtib olunacaq.

Qeyd edək ki, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi Səudiyyə Ərəbistanı Krallığı, İspaniya və Avstriya tərəfindən təsis olunmuş və Vatikan dövlətinin baş müşahidəçi kimi çıxış etdiyi beynəlxalq qurumdur. Təşkilatın əsas vəzifəsi dünyada baş verən münaqişələrin qarşısını almaq, onları aradan qaldırmaq üçün dünya səviyyəsində dinlərarası və mədəniyyətlərarası dialoqu təşviq etməkdir. Dialoq Mərkəzinin dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafı, müxtəlifliyə, ədalətə və sülhə ehtiramın artırılmasına yönəlmiş missiyası 5 qitə və 25 ölkədən müxtəlif mədəniyyət və dinlərə mənsub şəxslərdən ibarət işçi heyətində öz əksini tapır.

KAİCİİD dünyanın aparıcı dini konfessiyalarının nümayəndələrindən ibarət Direktorlar Şurası olan, din və dövlət xadimlərinin birgə təmsil olunduğu yeganə hökumətlərarası təşkilatdır.

# Qətərdə "13-cü Doha Dinlərarası Dialoq Konfransı" təşkil edilib

20 və 21 fevral tarixlərində Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzinin təşkilatçılığı ilə "13-cü Doha Dinlərarası Dialoq Konfransı" keçirilib.

"Dinlər və İnsan Hüquqları" mövzusuna həsr edilmiş iki günlük konfransda 50 ölkədən 400-ə yaxın dövlət və hökumət nümayəndələri, alimlər, din xadimləri, eyni zamanda, müsəlman və qeyri-müsəlman dini konfessiya rəhbərləri, müxtəlif ölkələrin diplomatik nümayəndələri iştirak ediblər.




Sözügedən konfransda ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini Rəfi Qurbanov, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin baş müəllimi, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov, ADA Universitetinin müəllimi, dinşünas alim Nəriman Qasımoğlu və "Həyat Sözü" Xristian dini icmasının sədri Rasim Xəlilov təmsil ediblər.

Tədbiri giriş sözü ilə açan Qətər Dövlətinin Xarici İşlər naziri Sultan İbn Saad bildirib ki, konfrans dünyada dinlər və mədəniyyətlərin parçalanaraq birgəyaşayış ənənələrinin məhvinə zəmin yaratdığı, münaqişə və qeyri-sabitliyin hökm sürdüyü bir dövrdə öz mahiyyətinə görə mühüm əhəmiyyət kəsb edir. Daha sonra Qətər Dövlətinin bu sahədə gördüyü işlərə toxunan nazir konfransın işinə və iştirakçılara uğurlar arzulayıb.

Konfrans "Dini etiqad azadlığı və dini ayinlər", "Fərdi hüquqlar və dövlət marağı", "Siyasi, iqtisadi və sosial hüquqlar", "İnsan hüquqlarının pozulmasına dair dinlərin mövqeyi", "Terrorizm və ekstremizmə dini baxış", "Dini tolerantlıq və dini dözümsüzlükdən imtina", "Fərdi və qrup hüquqlarının pozulması", "İlahi qanunlar və Beynəlxalq Konvensiyalar arasında insan hüquqları məsələsi"nə həsr edilmiş panel müzakirələr ilə öz işini davam etdirib.

"Ekstremizm və terrorizmə dini baxış" mövzusunda keçirilən paneldə "Dini dözümsüzlüyün əsas səbəbləri" mövzusunda çıxış edən Aqil Şirinov Azərbaycanda mövcud olan dini tolerantlıq mühitinə toxunaraq bildirib ki, ölkə ərazisində yaşayan müxtəlif dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət, dialoq və tolerantlıq mövcuddur. Dövlət-din münasibətlərinin yüksək səviyyədə təmin olunmasından danışan A.Şirinov ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" və 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Çıxışının sonunda o, Dağlıq-Qarabağ, Azərbaycan-Ermənistan münaqişəsinə toxunaraq qeyd edib ki, Azərbaycanın 20 faiz torpağı erməni silahlı qüvvələri tərəfindən işğal edilib, işğal edilmiş ərazilərdə tarixən mövcud olan tarixi-dini abidələrimiz, məscidlərimiz dağıdılıb.

Digər çıxışlardan sonra konfransın nəticəsinə dair Bəyannamə imzalanıb və "13-cü Doha Dinlərarası Dialoq Konfransı" öz işini başa çatdırıb.

# ŞİRVAN BÖLGƏSİNDƏ DİNİ DURUM: TARİX VƏ BU GÜN (QISA BAXIŞ)

*Əlverişli təbii-coğrafi şəraiti olan Azərbaycan ərazisi insanların məskunlaşdığı ilk yaşayış məskənlərindəndir. İntensiv yaşayış məskəni olmuş bu torpaq tarixin müxtəlif dövrlərini özündə əks etdirən abidələrlə zəngindir. Xalqın milli sərvəti sayılan həmin maddi mədəniyyət abidələri onun tarixinin və mədəniyyətinin öyrənilməsi baxımından əvəzsiz mənbədir. Bu abidələr arasında dünya memarlıq məktəbində özünəməxsus yeri olan dini abidələr – məscidlər, kilsələr, türbə və pirlər xüsusilə seçilir. Çünki həmin abidələr əsrlər boyu Azərbaycan ərazisində mövcud olmuş, buradakı xalqların həyatına, dünyagörüşünə, yaşayış tərzinə təsir göstərmiş inancların izlərini daşıyırlar. Bu baxımdan yerli əhalinin dünyagörüşünün formalaşmasında, onun ictimai-iqtisadi, siyasi, eləcə də dini varlığının möhkəmlənməsində mühüm rol oynamış tarixi yerlərin aşkarlanaraq tədqiq edilməsinin böyük elmi əhəmiyyəti vardır.*

Ölkə ərazisində zəngin təbii sərvətləri, tarixi-arxeoloji, dini və memorial abidələri ilə fərqlənən bölgələrdən biri də Şirvan ərazisidir. Ərazidə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqları, müxtəlif memarlıq abidələri bu ərazidə mövcud olmuş mədəniyyət haqqında müəyyən təsəvvürlər yaradır.

İslam dininin qəbuluna qədər Azərbaycanda mövcud olmuş dini inanclar Şirvan ərazisində də müəyyən dərəcədə yayılmış və bəlli bir zaman çərçivəsində hakim mövqeyə malik olmuşdur. Bunu ərazidə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəni nümunələrə əsasən söyləmək olar.

Şirvan ərazisinin erkən orta əsrlərə aid bütpərəst, xristian və erkən müsəlman qəbirlərinin tətbiq olunması qeyd edilən dövrdə əhalinin dini dünyagörüşünü öyrənməyə imkan yaratmışdır. Bu hal memorial abidələr üçün də xarakterikdir.

Sovet tarixşünaslığında VII-IX əsrlər Albaniyasının cənub-qərb və cənub sərhədləri məsələsi ilk dəfə akademik Z.M.Bünyadov tərəfindən düzgün tədqiq edilmişdir. Bu tədqiqatlar sayəsində Şirvan ərazisinin qədim dövrünün bəzi qaranlıq səhifələrinə aydınlıq gətirilmişdir.

Şirvan ərazisindəki Şəhərgah küp qəbirləri A.Nuriyev tərəfindən öyrənilmişdir. O, küp qəbirlərin erkən orta əsrlərə aid olduğunu söyləmişdir. Ş.S.Əhmədovun "Pirsaatçay hövzəsinin ilk orta əsr abidələri" adlı əsəri isə bütövlükdə Şirvan bölgəsinin bu dövr dini abidələrini öyrənmək baxımından qiymətlidir.

Şirvan bölgəsinin ayrı-ayrı yaşayış yerləri və iqtisadi əlaqələri haqqında həm orta əsr müəlliflərinin, həm də ayrı-ayrı tədqiqatçıların əsərlərində məlumatlar vardır. XVI əsrin əvvəllərində yaşamış Əbdürrəşid əl-Bakuvinin "Təlxis əl-Asar və əcaib əl-məlik əl-qəhhar" (Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri) kitabında Şirvan ərazisinin də daxil olduğu Kür və onun ətraf yaşayış yerləri, həmçinin dini inancları haqqında xeyli məlumat verilmişdir.

Hacıqabul rayonu Abdulabad kənd ərazisindəki küp qəbirlər yerli əhali arasında Baş təpə adlanan abidədə təsərrüfat işləri aparılarkən aşkarlanmışdır. Təpənin cənub-qərb hissəsinin üst qatı götürülərkən aşkarlanmış insan sümükləri, küp qəbirlərin qalıqları və dəfn olunan şəxsə məxsus avadanlıqlar burada yaşayışın İslamdan çox əvvəl olduğunu söyləməyə əsas verir. Həmin təpənin cənub hissəsində müsəlman adəti ilə dəfn olunan cəsəd qalıqlarına rast gəlinməsi burada yaşayışın uzun müddət davam etdiyini göstərən amillərdəndir. Salyan rayonu ərazisində yerləşən Babazənli dağı ətrafındakı qədim qəbiristanın tədqiqatı isə burada yaşayışın 2800 ildən çox olduğunu sübut edir.

Tarixi-arxeoloji araşdırmalar nəticəsində Şirvan bölgəsində mövcud olan bir çox dini abidələr öyrənilmişdir. Əksəriyyəti xatirə qoymaq məqsədilə tikilmiş bu abidələrdə dövrünün görkəmli seyidləri, alimləri və din xadimləri dəfn olunmuşdur. Bu abidələrdən bir neçəsi haqqında qısa məlumat vermək məqsədəuyğundur.

Pir Hüseyn Xanəgahı – Hacıqabulun Nəvai kəndi ərazisində, Pirsaat çayı sahilində yerləşən memarlıq kompleksidir. Zəngin inşaat texnikasına malik olan bu qiymətli tarixi-memarlıq abidəsi əhalinin müqəddəs saydığı, pirə çevirdiyi və bu gün də ziyarət yeri olan Pir Hüseyn Şirvaninin türbəsi ətrafında yerləşir. Türbə XI yüzilliyin sonlarında tikilmişdir.

Vəğam – Salyan rayonu ərazisindəki bu pir Şatrovka-Pakirovka (Nizami və Nəsimi kəndləri) kəndinin dörd kilometrliyində, təpəlikdəki qəbiristanlıqda yerləşir. İri sal qayalardan ibarət mağaranın boşluqlarında düzəldilən və bir kiçik otaqdan ibarət olan pirin divarları əhənglə ağardılıb. Tavanın uçmaması üçün hər tərəfdən çox da hündür olmayan dördbucaqlı dirəklər bərkidilmişdir.

VIII-XII əsrlərdə sufizmlə sıx əlaqədar olmuş Vəğam piri bu təriqəti təbliğ edən dərvişlərin, şeyxlərin yığıncaq məskəni kimi fəaliyyət göstərmişdir.

Dəmro piri – Şirvanın Çıplaklı qəbiristanında yerləşir. Yerli əhali arasında Dəmrol kimi də tanınan pir adi sinə daşından ibarətdir. Buraya nəzarət edənin fikrincə, pirin torpağından bəzi xətəlikların (dəmro, xora) müalicəsində istifadə olunur.

Qara Seyid piri – Hacıqabul rayonunun Meynaman kəndində, Kür çayının sol sahilində qədim qəbiristanın ərazisində yerləşir. Kəndin yerli sakinləri ilə aparılan söhbətlərdən məlum olur ki, Qara Seyid xeyirxah şəxs kimi tanınmışdır. Çətinliyə düşən, dolanışığı ağır keçən hər kəs ziyarətə gəlib ondan kömək istəyərmişlər.

Mirəliəşrəf piri – Hacıqabul rayonunun mərkəzindən 30 km qərbdəki qəbiristanlığın ərazisində yerləşir. Pirin adını daşıdığı Mirəliəşrəf adlı şəxsin qəbri üzərində tikilən ziyarətgah səkkiz guşəlidir. Üzərində ağ dəmirdən günbəz vardır.

Seyid Səkinə piri - Hacıqabul rayonunun mərkəzindən 30 km qərbdə, Kolani kənd qəbiristanlığının ərazisində yerləşir.

Sarı pir - Hacıqabul rayon mərkəzindən 25 km qərbdə, Kür çayının sol sahilində, Şirvan düzündə Talış kəndində yerləşən qəbiristan el arasında Sarı pir kimi tanınır. Buradakı qəbirlərin əksəriyyəti köhnə qəbirlərdir.

Bu ərazidə tədqiq olunan pirlər Məhəmməd peyğəmbərin (s) nəslindən sayılan bir çox seyidin burada məskunlaşdığını söyləməyə əsas verir. Ümumiyyətlə, hələ qədim dövrlərdən pirlər müqəddəs sayılmışdır. Ulu əcdadlarımız pirlərə inam bəsləmiş, müxtəlif niyyətlər üçün dedikləri qurbanları pirlərin həyətində kəsərək orada ocaq daşlarının üstündə bişirmişlər. Etnoqrafik müşahidələr göstərir ki, niyyətlərinin yerinə yetməsi məqsədilə kəsilən heyvanların buynuzlarını, dırnaqla birgə ayaqlarını da əksər hallarda pirin həyət qapısından asarmışlar.

VII əsrdən etibarən İslamın Azərbaycanda hakim dinə çevrilməsi yerli əhalinin bu dinlə, onun mədəniyyəti ilə yaxından tanış olmasına şərait yaratdı. Digər tərəfdən azərbaycanlı alimlər üçün ümumislam elm və mədəniyyətinə qovuşmaq imkanı yarandı. Şirvanlı alimlər xilafətin paytaxtına üz tutdu və bu ənənə uzun əsrlər boyu davam etdi.

Şirvan ərazicə o qədər geniş olmasa da, onun İslam elminə, mədəniyyətinə verdiyi ruh və fikir nəhənglərinin sayı kifayət qədərdir. Həmin görkəmli alimlərin irsinin öyrənilərək gələcək nəsillərə çatdırılması olduqca önəmlidir.

Şirvan bölgəsinin dəyərli ruhanilərindən biri ilahiyyatçı alim, Qafqaz müsəlmanlarının III şeyxülislamı Şeyx Əhməd Salyanidir. O, Qafqaz müsəlmanlarının I şeyxülislamı Məhəmmədəli Hüseynzadənin oğlu, mütəfəkkir Əli bəy Hüseynzadənin babasıdır.

Zəmanəsinin qüdrətli müctəhidi, qeyri-adi kəramət sahibi olan Ayətullah Ağazadə Seyid Əli Ağa Səlyani də 1878-ci ildə (1870 yazanlar da var) keçmiş Salyan qəzasının Kür Qarabucaq kəndində ruhani ailəsində anadan olmuşdur. O, dini elmlərlə yanaşı, dünyəvi elmlərin müxtəlif sahələrini – riyaziyyatı, həndəsəni, tarixi, coğrafiyanı, nücum (astronomiya) elmini, dilçiliyin bir çox sahələrini, ərəb, fars dillərini mükəmməl bilən alimlərdən olmuşdur.

1843-cü ildə Azərbaycanın Salyan şəhərində ruhani ailəsində dünyaya göz açan Molla Əbdüssalam Axundzadə Salyani Şirvan bölgəsindən çıxmış qüdrətli alim və fəqihlərdəndir. Fasiləsiz və yorulmadan çalışdığı üçün ona "Qafqazın Şeyxülislamı" ləqəbi verilmişdir.

Zəkalı alim və görkəmli fəqihlərdən olan Seyyid Abbas Yəhya oğlu Hüseyni Musəvi Səlyani də hicri on ikinci əsrin ortalarında Salyan şəhərinin Sadat kəndində dünyaya gəlmişdir.

1935-1938-ci illərdə baş verən repressiyalar Şirvan bölgəsindən də yan keçməmişdir. Din xadimləri həbs olunaraq Sibirə sürgün edilmiş, bölgədəki bir çox məscidlər uçurdulmuş, kitabxanalar yandırılmış, və 70 il ərzində insanlar İslam dinindən kənar salınmışlar. Lakin Azərbaycan öz müstəqilliyini bərpa etdikdən, xüsusən də Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra milli-mənəvi dəyərlərimizə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, ölkədə etiqad, inanc azadlığı bərqərar olundu. Vətəndaşların vicdan azadlığı Konstitusiyanın 48-ci maddəsində öz əksini tapdı və "Dini etiqad azadlığı haqqında" Qanun qəbul olundu. Ulu Öndərin Sərəncamı ilə 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Respublikanın başqa bölgələrində olduğu kimi, Şirvan bölgəsində də dinlə bağlı atılan ilk addımlardan biri "Dini etiqad azadlığı haqqında" Qanuna uyğun olaraq yeni dini icmalar yaradılmasından ibarət olmuşdur. Digər tərəfdən, dini təhsil və yerli din xadimlərinin hazırlığı məsələsi həmişə ön planda olmuşdur.

Artıq bu gün bölgədə 180 məscid mövcuddur. Son statistikaya görə, Şirvan şəhərində 8, Hacıqabul rayonunda 29, Salyan rayonunda 51, Neftçala rayonunda 47, Biləsuvar rayonunda 44 məscid var. Eyni zamanda, dövlət başçımız cənab İlham Əliyevin tapşırığı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid inşa edilmişdir. 50 sot ərazidə inşa edilən məscidin tikinti sahəsi 556 kvadratmetrdir. Minarələrinin hündürlüyü 26 metr təşkil edir. Prezident İlham Əliyevin iştirakı ilə məscidin açılış mərasimi olmuşdur.

Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinin əməkdaşları yerli icra hakimiyyətləri və QMİ-nin nümayəndələri ilə birlikdə bölgədə radikal dini cərəyanların nümayəndələrinə qarşı mübarizədə maarifləndirmə işinə böyük yer verir. Dövlət Komitəsinin nəşrlərinin əhali arasında paylanması dini maarifləndirmə işinə müəyyən mənada müsbət təsir göstərir. Dini maarifləndirmə işi ilə bağlı 2016-cı ildən bugünədək Şirvan şöbəsinin birbaşa təşkilatçılığı, eləcə də əsas iştirakı ilə 70-dən çox tədbir keçirilmişdir. Maarifləndirmə işi əsasən dini radikalizm və onun fəsadları, gənclərin radikal dini ideologiyaların təsirindən qorunması, milli-mənəvi dəyərlərimizin, multikultural və dini dözümlülük ənənələrinin təbliği və inkişafı, dini ekstremizm, zərərli vərdişlər və s. istiqamətlərdə aparılır.

Son iki ildə bölgənin şəhər və rayon məscidlərində kitabxanaların yaradılması isə xüsusi hal kimi qiymətləndirilməlidir.

**Azər SADIQOV,**
DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən konfrans, seminar-müşavirə və seminar-treninqlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən tədbirlər:*

**1 fevral** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Astara şəhər F.Əliyarov adına 6 saylı tam orta məktəbdə "Gənclər və milli-mənəvi dəyərlərimiz" mövzusunda;



**2 fevral** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə "Vətənpərvərliyin formalaşmasında milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**6 fevral** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Lənkəran rayonu Hirkan qəsəbə tam orta məktəbində "Vətənpərvər gənclik dini radikalizmə qarşıdır" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Xaçmaz rayonu Nərəcan kəndində "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyada müəllim və yuxarı sinif şagirdlərinin iştirakı ilə "Milli-mənəvi dəyərlərimizdən qaynaqlanan Vətən sevgisi" mövzusunda;

**7 fevral** – Göyçay RİH və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Gənclərdə sağlam dini təfəkkürün formalaşdırılması" mövzusunda;



**8 fevral** – DQİDK və "BP Azərbaycan" şirkətinin birgə təşkilatçılığı ilə dini radikalizmə qarşı mübarizəyə dair; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Xucbala kəndində "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı RİH təşkilatçılığı ilə Masallı rayonu Təzə Alvadı kəndində ideoloji maarifləndirmə işinin səmərəliliyinin artırılması məqsədi ilə;

**9 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-diyarşünaslıq muzeyinin birgə təşkilatçılığı ilə vətənpərvərlik mövzusunda;

**13 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Regional Mədəniyyət və Turizm İdarəsinin birgə təşkilatçılığı ilə Cəfər Cabbarlı adına Masallı Rayon Mərkəzi kitabxanasında "Xocalı soyqırımı: XX əsrin faciəsi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Səpnəkəran kənd tam orta məktəbində "Gəncləri radikal dini cərəyanlardan necə qoruyaq?" mövzusunda; DQİDK və Binəqədi RİH birgə təşkilatçılığı ilə Binəqədi rayonu 126 nömrəli tam orta məktəbdə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun X qrant müsabiqəsinin qalibi, Binəqədi rayonunun fəal gənci Nərmin Məhərrəmovanın "Sülh dini – İslam" layihəsinin bağlanış tədbiri və eyniadlı kitabçanın təqdimetmə mərasimi; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Şabran RİH birgə təşkilatçılığı ilə Şabran şəhər Mədəniyyət Mərkəzində "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Muxax kənd 1 nömrəli tam orta məktəbində "Gənc nəsil milli-mənəvi dəyərlərimizə sadiqdir" mövzusunda;

**14 fevral** – DQİDK və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin birgə təşkilatçılığı ilə 2, 9 və 17 saylı cəzaçəkmə müəssisələrində;

**15 fevral** – DQİDK və "BP Azərbaycan" şirkətinin birgə təşkilatçılığı ilə dini radikalizmə qarşı mübarizəyə dair; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən RİH birgə təşkilatçılığı ilə Siyəzən rayonu Zarat kəndində "Vətən sevgisi imandandır" mövzusunda;

**16 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir ŞİH birgə təşkilatçılığı ilə "Gənclərin radikal meyillərdən qorunması" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Dini ekstremizm və ayrı-seçkilik çağırışlarına qarşı gənclərin səfərbər edilməsi, onlar arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğ edilməsi" mövzusunda;



**20 fevral** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Vilvan kənd tam orta məktəbində "Vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH birgə təşkilatçılığı ilə rayonun Paşan kənd tam orta məktəbində "Vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH birgə təşkilatçılığı ilə Quba Peşə Liseyində "Narkomaniyaya qarşı mübarizədə din amili" mövzusunda;

**21 fevral** – DQİDK, Nizami RİH və Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Bakı Texniki Kollecində "Gəncləri radikal meyillərdən qoruyaq" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və onun fəsadları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH birgə təşkilatçılığı ilə rayonun Amsar kəndində "Vətəni sevmək imandandır" mövzusunda; Zərdab RİH və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Zərdab şəhər 1 saylı məktəb-liseydə "Dini radikalizm və onun təzahür formaları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz RİH birgə təşkilatçılığı ilə Müqtədir qəsəbəsində;

**22 fevral** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Xocalı faciəsinə həsr edilən; DQİDK-nın və "BP Azərbaycan" şirkətinin birgə təşkilatçılığı ilə dini radikalizmə qarşı mübarizəyə dair; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və QMİ birgə təşkilatçılığı ilə Quba Rayonu Zizik kənd məscidində;




**23 fevral** – DQİDK-nın təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə; DQİDK və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin birgə iş planına uyğun olaraq Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissədə "Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişafının istiqamətləri" mövzusunda;

**23 fevral** – Göyçay RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və QMİ-nin bölgə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və QMİ birgə təşkilatçılığı ilə Quba rayonu II Nügədi kəndi "Molla Hud" məscidində Xocalı faciəsinin 26-cı ildönümünə həsr edilmiş;

**24 fevral** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Şamaxı və Qobustan RİH-ləri və QMİ birgə təşkilatçılığı ilə Xocalı faciəsinə həsr edilən;

**25 fevral** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşəbbüsü ilə Sumqayıt şəhəri Kotec qəsəbəsi "İmam Sadiq" məscidində Xocalı soyqırımı qurbanlarının anım tədbiri keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Bildirilib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır və dini biliyi olmayan, onun əsl mahiyyətini dərk etməyən gənclər bəzən bilmədən bu yola düşürlər. Dünyanın dini radikalizmin törətdiyi acı nəticələrin qarşısında aciz qaldığı bir zamanda Azərbaycan dövləti düzgün ideoloji iş apararaq ölkəmizi bu cür qarışıqlıqlardan uzaqda tuta bilib. Gənc nəsil də var qüvvəsini elmə və sağlam inkişafa həsr etməklə öz müstəqil dövlətlərini, milli-mənəvi dəyərlərini qorumağa çalışmalıdır.



Həmçinin çıxışlarda mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olan İslam dininin humanist və sülhsevər din olduğu diqqətə çatdırılıb və bu mövzuda maarifləndirmə tədbirlərinin təşkilinin xüsusi əhəmiyyətli olduğu vurğulanıb. Məruzəçilər milli-mənəvi dəyərlərin həmrəyliyimizdə xüsusi yer tutduğundan və gənclərin milli ruhda tərbiyə almasının zəruriliyindən danışıblar.

Tədbirlərdə, eyni zamanda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

*Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2018-ci ilin fevral ayı ərzində müxtəlif bölgələrdə tədbirlər keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*

**2 fevral** – Xəzər rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan modeli" layihəsi çərçivəsində; Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icmasının "Azərbaycan gənci: millilik, qazilik, şəhidlik" layihəsi çərçivəsində Cocuq Mərcanlı kənd məktəbində;



**7 fevral** – Quba rayonu Xucbala kənd məscidi dini icmasının "İslam sülh və tolerantlıq dinidir" layihəsi çərçivəsində; Bərdə rayon Lənbəran kənd "Hacı Həmid" məscidi dini icmasının "İslam həmrəyliyi: ortaq dəyərlər əsasında" layihəsi çərçivəsində "Gənclərimiz və İslam həmrəyliyi" mövzusunda;

**8 fevral** – Şəki rayonu Baş Zəyzid kənd məscidi dini icmasının "Dini radikalizm İslam həmrəyliyinə və tolerantlıq prinsiplərinə ziddir" layihəsi çərçivəsində; Saatlı rayonu Şirinbəy kənd məscidi dini icmasının "İslam həmrəyliyi və millli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Qax şəhər məscidi dini icmasının "Mədəniyyət və din" layihəsi çərçivəsində "Mədəni-dini abidələrimiz" mövzusunda; Astara rayon Şahağacı kənd məscidi dini icmasının "İslam həmrəyliyinin təbliğində məzhəblərarası dialoq" layihəsi çərçivəsində;

**9 fevral** – Xəzər rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan modeli" layihəsi çərçivəsində;

**13 fevral** – Biləsuvar rayonu İsmətli kənd "Əbülfəzl" məscidi dini icmasının "İslam həmrəyliyi - sülhə aparan yol" layihəsi çərçivəsində;



**14 fevral** – Saatlı rayonu Qazanbatan kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və əmin-amanlığa çağırışdır" layihəsi çərçivəsində "İslam həmrəyliyi radikalizmə və ekstremizmə qarşıdır" mövzusunda; Şirvan şəhəri '"Zeynalabidin'" məscidi dini icmasının "İslamda həmrəliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində Şirvan şəhəri 1 nömrəli tam orta məktəbində; Quba rayonu Xucbala kənd məscidi dini icmasının "İslam sülh və tolerantlıq dinidir" layihəsi çərçivəsində Aşağı Atuc kəndində;

**16 fevral** – Xəzər rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icmasının "İslam həmrəyliyin Azərbaycan modeli" layihəsi çərçivəsində;

**17 fevral** – Şəki rayonu Baş Zəyzid kənd məscidi dini icmasının "Dini radikalizm İslam həmrəyliyinə və tolerantlıq prinsiplərinə ziddir" layihəsi çərçivəsində;



**21 fevral** – Qax şəhər məscidi dini icmasının "Mədəniyyət və din" layihəsi çərçivəsində "Azərbaycan mədəniyyətində İslamın yeri və rolu" mövzusunda;

**22 fevral** – Kürdəmir şəhər "İmam Rza" məscidi dini icmasının "İslam həmrəylik və birliyə çağırış dinidir" layihəsi çərçivəsində; Masallı rayonu Boradigah qəsəbəsi "Həzrəti Əli məscidi" dini icması tərəfindən "Erkən nikahlar və onun fəsadları" mövzusunda; Astara rayon Şahağacı kənd məscidi dini icmasının "İslam həmrəyliyinin təbliğində məzhəblərarası dialoq" layihəsi çərçivəsində;

**23 fevral** – Xəzər rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan modeli" layihəsi çərçivəsində; Bərdə rayon Lənbəran kənd "Hacı Həmid" məscidi dini icmasının "İslam həmrəyliyi: ortaq dəyərlər əsasında" layihəsi çərçivəsində; Qax şəhər məscidi dini icmasının "Mədəniyyət və din" layihəsi çərçivəsində "Adət-ənənələrin dindəki yeri" mövzusunda; Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icmasının "Azərbaycan gənci: millilik, qazilik, şəhidlik" layihəsi çərçivəsində Cocuq Mərcanlı kənd məktəbində;



**26 fevral** – Saatlı rayon Şirinbəy kənd məscidi dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "İslam həmrəyliyi, milli-mənəvi dəyərlərimiz və şəhidlik" mövzusunda baş tutub.

Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə DQİDK-nın mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri çıxış ediblər. Ölkəmizin zəngin milli-mənəvi dəyərlərindən, bu dəyərlərin qorunmasının və gənclər arasında təbliğinin əhəmiyyətindən danışan natiqlər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar. Həmçinin çıxışçılar dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.

Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BÖLGƏLƏRDƏ "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ NÜMAYİŞ OLUNUB




*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində radikal dini təmayüllərin zərərli ideyalarına qarşı mübarizə məqsədilə kütləvi nəşrlər, o cümlədən maarifləndirici kitab, jurnal, broşürlər çap edilir, sənədli filmlər hazırlanır. Bunlardan biri də Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmidir. Filmdə Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizm və radikalizmin təsirinə məruz qalan, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs olunur. DQİDK əməkdaşlıq etdiyi qurumlarla birgə ölkə ərazisində "Şəhadət" sənədli filminin nümayişini həyata keçirir. Fevral ayı ərzində filmin nümayişi:*

**1 fevral** – DQİDK-nın Yevlax bölgəsinin təşkilatçılığı Bərdə şəhər 5 saylı tam orta məktəbində;

**2 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayon Heydər Əliyev mərkəzində;

**9 fevral** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Füzuli rayonunun "Zobcuq-4" qəsəbəsində; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə rayonun Kəngərli kənd tam orta məktəbində; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonu Qobu qəsəbə 3 saylı tam orta məktəbində;





**16 fevral** – DQİDK-nın təşkilatçılığı ilə Salyan rayonu Qardılı kənd şəhid Cəsur Əliyev adına tam orta məktəbində;

**20 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdə şəhər 6 saylı tam orta məktəbində;

**21 fevral** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Nəsimi adına şəhər 2 saylı tam orta məktəbində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Bakı İslam Universitetinin Zaqatala şöbəsinin birgə təşkilatçılığı ilə Əliabad İslam Kollecində;

**22 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş şəhər İstək liseyində baş tutub.

# "ELM ÖYRƏNMƏK GÖZƏL ƏMƏL, ONU AXTARMAQ İSƏ İBADƏTDİR"

Səmavi kitabların sonuncusu Qurani-Kərim ilk dəfə Hira mağarasında Cəbrail (ə) vasitəsilə Həzrət Məhəmmədə (s) nazil olarkən Allah-Təala ilk əmrini "Oxu" ilə başladı. Və bununla da Allah elm öyrənməyi, oxumağı, maariflənməyi insanlara vacib buyurdu. Daha sonra da Peyğəmbəri (s) vasitəsilə bizə elmin dəyəri, əzəməti və mükafatları barədə məlumat verdi.

Mütəfəkkirlər, elm adamları elmə müxtəlif cür təriflər vermişlər. Məsələn, Əbu turxan deyir ki, elm kainatın və ya hadisələrin bir bölümünü mövzu olaraq seçən, təcrübi üsullarla və həqiqətə söykənərək qanunlar çıxarmağa çalışan mərkəzləşdirilmiş sistemdir. Zərdüşt isə elmi "insanı Tanrıya yaxınlaşdıran bilik" kimi təqdim etmişdir. Albert Eynşteynə görə, elm bizim hissi təcrübəmizin xaotik müxtəlifliyinin hansısa vahid təfəkkür sisteminə uyğunlaşdırılmasıdır. Həmçinin elm hansısa mövzunu bilmək istəyindən yola çıxaraq müəyyən bir istiqamətə yönələn məlumat əldə etmə və araşdırma metodudur. Qısacası, elm – öyrənmək deməkdir.

Elmin tarixi çox qədim dövrlərə qədər gedib çıxır. Bəzilərinə görə, elmin, biliyin tarixi insanların ilk dəfə "nəyə görə", "hansı səbəbdən" sualını ortaya qoyduğu vaxtdan başlanır. İnsanların dünya hadisələrini izah etmək cəhdləri yalnız "nə etmək", "necə etmək" sualını deyil, həm də "nəyə görə belədir" sualını doğurmuşdur. Bu da biliklərin bölgüsünə, əməli biliklərlə yanaşı, ilk elmi biliklərin yaranmasına səbəb olmuşdur ki, bu hadisə müəyyən mənada elmin başlanğıcı kimi qəbul oluna bilər.

Digərləri isə hesab edirlər ki, elmin tarixi biliklərin bir sistem kimi formalaşdığı vaxtdan başlanır. Yəni elə bir vaxtdan ki, həmin vaxta qədər toplanmış bi¬liklər yeni əldə olunan bi¬lik üçün meyara çevrilir. Artıq qərar¬lasmış bi¬liklərə uyğun gəlmək, onları tamamlamaq elmiliyin şərti kimi çıxış edir. Digər tərəfdən, mövcud biliklər zə¬minində daha obyektiv gerçəklikdən yeni faktiki ma¬terial gözləmədən yeni bilik almaq imkanı yara¬nır; başqa sözlə, mövcud biliklər sistemi özü¬nü in¬kişaf etdirmək keyfiyyəti əldə edir. Elmin özünü¬in¬kişaf sis¬teminin olması onun müasir dövrdə siner¬ge¬tik kontekstdə arasdı¬rıl¬masını da aktuallaşdırır.

Allah Rəsulu (s) buyurur ki, "Elm üç şeydir: "ayətun muhkəmə", "fərizətun adilə" və "sünnətün qaimə". Bunlardan başqa nə varsa, elm yox, fəzilətdir" ("Üsuli-kafi", c. 1, s. 37). Müasir dövr məşhur İslam filosoflarından Mürtəza Mütəhhəri bu hədisə şərh verərkən belə yazır: "Biz bəzi elmləri dini, bəzi elmləri isə qeyri-dini hesab edirik. Dini elmlər dedikdə dini əqidə, əxlaq, əməli elmlər və bu elmlərə giriş, müqqədimə olan ərəb ədəbiyyatı, məntiq və s. nəzərdə tutulur. Bəziləri düşünə bilər ki, dini adlandırdığımız bu elmlərdən başqa nə varsa, gərəksiz bir şeydir. Əslində isə belə deyil. Müsəlmanlar üçün faydalı olan bütün elmlər dini elmdir və bu elmləri öyrənmək vacibdir. Götürək ərəb dilinin qrammatikasını. Bu sahəni öyrənmədən Quranı anlamaq olarmı?! Deməli, insanı həqiqətə yaxınlaşdıran nə varsa, həm vacibdir, həm də savab. Burada elm öyrənən insanın niyyəti böyük rol oynayır. Allaha yaxınlaşmaq məqsədi olmadan heç Quran öyrənməyin də savabı yoxdur..."

Həzrət Əli (ə) isə belə buyurmuşdur: "Elm iki növdən ibarətdir: biri fitri (nişanələri əməldə aşkar) olan elm, digəri isə eşidilmə elmdir. Eşidilmə elm fitri olmayınca fayda verməz (insanı elmin həqiqətlərinə çatdıraraq xoşbəxt etməz)".

Qurani-Kərimin "Zumər" surəsinin 9-cu ayəsində buyurulur: "...De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?!.." Elmin dəyərini ortaya qoyan bu ayə elm əhlinin Allah dərgahında nə qədər üstün olduğunu bizə çatdırır.

Elm elə bir dəyərli xəzinədir ki, Həzrət Musa (ə) ondan ötrü uzun və təhlükəli səfərə çıxır: "Musa ondan (Xızırdan) soruşdu: "Doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?" ("Üsuli-kafi", c. 1, s. 44). Həmçinin Allah Rəsulu (s) belə buyurmuşdur: "Elm öyrənmək bütün müsəlmanlara vacibdir" ("Üsuli-kafi", c. 1, s. 31). İmam Məhəmməd Baqirin (ə) isə belə dediyi rəvayət olunur: "Elm öyrənməyə çalışın, çünki elm öyrənmək gözəl əməl, onu axtarmaq isə ibadətdir" ("Biharul-Ənvar", c. 78, s. 189).

Quran və hədislərdən əldə olunan nəticə budur ki, insan gərək daim elm axtarışında olsun və özünü cəhalət bataqlığına qərq olmaqdan qorusun.

Ancaq burada incə bir nöqtə diqqət yetirmək lazımdır: o da elmi təfəkkür edərək öyrənməyimizdir. Quran və hədislərə diqqət yetirsək, təfəkkürsüz, əməlsiz elmin insana heç bir faydası olmadığını görərik.

Təfəkkür barədə ən məşhur hədis İmam Cəfər Sadiqin (ə) dilindən belə bəyan olunmuşdur: "Bir saat düşünmək min illik ibadətdən yaxşıdır" ("Misbahüş-şəriə", s. 114). Bu sözü daha gözəl anlamağımız üçün ilk növbədə "təfəkkür" ilə nəyin nəzərdə tutulduğunu bilməliyik. Ona görə də Qurani-Kərimə müraciət etmək daha məqsədəuyğun olardı.

Allah-Təala "Rum" surəsinin 8-9-cu ayələrində belə buyurur: "Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi? Həqiqətən, insanların çoxu Rəbbi ilə qarşılaşacağını (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağını) inkar edir. Məgər onlar yer üzünü gəzib özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar (Ad, Səmud tayfaları) bunlardan daha qüvvətli idilər. Onlar (əkinçilik məqsədilə) torpağı qazıb altını üstünə çevirmiş və yer üzünü bunlardan daha çox abad etmişdilər. Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm etmirdi, onlar özləri özlərinə zülm edirdilər".

Mövzu ilə əlaqədar İmam Rzanın (ə) bu sözləri də maraqlıdır: "İbadət namazın və orucun çoxluğunda deyil. İbadət Allahın işləri (qüdrəti, yaratdıqları) barədə düşünməkdir" ("Üsuli-kafi", c. 2, s. 54).

Əllamə Məclisi isə İmam Əlinin (ə) böyük oğlu İmam Həsənə (ə) belə vəsiyyət etdiyini xəbər verir: "Heç bir ibadət Allahın yaratdıqları barədə düşünmək kimi (fəzilətli) ola bilməz" ("Biharul-ənvar", c. 71, s. 324).

Quran və hədislərdən göründüyü kimi, təfəkkür deyərkən insanı Allaha yaxınlaşdıran, gözəl əməllərə şövq edən, haramdan uzaqlaşdıran, Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) itaətə həvəsləndirən düşüncə nəzərdə tutulur. İnsana günahı aşılayan, ibadətdən, Allahdan uzaqlaşdıran fikirlər isə təfəkkür sayıla bilməz. Ona görə də Müqəddəs Kitabımızda Allah-Təala nemətlərini insanlara saydıqdan sonra "Məgər düşünmürlərmi?", "Məgər fikirləşmirlərmi?", "Əgər düşünsəniz" və s. kimi suallarla insanların diqqətini düşüncənin, təfəkkürün önəminə yönəltməyə çalışır.

Nəticə etibarilə deyə bilərik ki, İslam dini elmlə heç bir ziddiyyət təşkil etmir. Əksinə, dinimiz elmə çox böyük dəyər verir. Əgər insanı bir quşa bənzətsək, elm və mənəviyyatı bu quşun iki qanadı kimi təsəvvür etmək olar. Yəni bir quşun uçması üçün onun bir qanadı nə qədər vacibdirsə, digər qanadı da eyni əhəmiyyətə malikdir.

Sonda yazımızı İmam Əlinin (ə) yaxın səhabələrindən Kumeyl ibn Ziyada etdiyi tövsiyəsi ilə tamamlamaq istəyirik: "Ey Kumeyl! Elm mal və sərvətdən üstündür. Çünki elm səni qoruyur, halbuki sən mal və sərvəti qoruyursan. Elm paylaşmaqla artır, amma mal paylaşmaqla azalır və bitdikdə sahiblərinin də sonu çatır... İnsan elmin vasitəsilə bu dünyada Allaha itaət edir, vəfatından sonra isə onu xoş xatirələrlə yad edirlər. Elm hakim, sərvət isə məhkumdur (məsuliyyət gətirir)".

**Məhəmməd İBADLI,**
Lənkəran rayonu Kənarmeşə
kənd məscidinin mütəvəllisi

# RUS PRAVOSLAV KİLSƏSİNİN RƏHBƏRİ BİLİK FONDUNUN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF OLUNUB

Ulu Öndər Heydər Əliyevin banisi olduğu və bu gün Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət siyasəti nəticəsində getdikcə möhkəmlənən, ölkəmizdə insan kapitalının formalaşması və zənginləşməsini təmin edən azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi dəyərlərimizin, mədəniy-yətimizin və milli sərvətimiz hesab edi-lən dilimizin təbliği Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun əsas fəaliyyət istiqamətlərindən biridir. Fondun "Azərbaycan dilini öyrənirik" layihəsi çərçivəsində artıq üçüncü ildir ki, Rus Pravoslav kilsələrində, eləcə də Alban-Udi xristian icmasında "Azərbaycan dili" üzrə təlim kursları təşkil olunub. Dövlət dilini rusdilli vətəndaşlara təcrübəli dil və ədəbiyyat müəllimləri tədris edirlər. Hər il kursu uğurla bitirənlərə müvafiq sertifikatlar təqdim olunur. Dinləyicilər Bilik Fondu tərəfindən dərslik və lüğətlərlə, danışıq kitabçaları və əyani vəsaitlərlə təmin edilirlər. Həmçinin təlimlər zamanı onlar Azərbaycan dilində film və teatr tamaşalarına dəvət edilir, muzey və sərgilərlə tanış olur, tanınmış yazıçılar və mədəniyyət xadimləri ilə görüşür, fondun maarifləndirici layihələrinə qatılırlar.



Fevralın 28-də Bilik Fondunun icraçı direktoru Oktay Səmədov Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein ilə görüşüb.

Görüşdə O.Səmədov Azərbaycanda tolerantlıq ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinin təbliği ilə bağlı Bilik Fondunun maarifləndirici layihələrində fəal iştirak etdiyinə görə fondun fəxri fərmanını din xadiminə təqdim edib.

Görüşdə, həmçinin Aleksandr Atanın dəstəyi və Bilik Fondunun təşkilatçılığı ilə bu qurumun "Azərbaycan dilini öyrənirik" layihəsi üzrə Bakıdakı "Jen Mironosets" və "Mixail Arxangel" kilsələrində təşkil olunmuş Azərbaycan dili üzrə ödənişsiz təlim kurslarının fəaliyyəti, təlimlərlə yanaşı, digər tədbirlərin təşkili ilə bağlı məsələlər müzakirə edilib, əhalinin dini maarifləndirilməsi istiqamətində birgə tədbirlər ətrafında fikir mübadiləsi aparılıb.

Rus Pravoslav Kilsəsinin rəhbəri Bilik Fondunun maarifləndirici fəaliyyətini yüksək dəyərləndirdiyini və bu qurumun fəxri fərmanına layiq görüldüyünə görə minnətdarlığını bildirib.

# AZƏRBAYCAN KATOLİK KİLSƏSİNİN ORDİNARİSİNİN YEPİSKOP RÜTBƏSİNƏ YÜKSƏLDİLMƏSİ İLƏ ƏLAQƏDAR BAKIDA MƏRASİM KEÇİRİLİB

Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Feketenin yepiskop rütbəsinə yüksəldilməsi ilə əlaqədar fevralın 11-də Bakıda təqdisetmə mərasimi keçirilib.

Təqdisetmə mərasimini ölkəmizdə səfərdə olan Vatikanın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallager Müqəddəs Məryəm katolik kilsəsində yerinə yetirib.

Mərasimdə din xadimləri, ölkəmizdəki müxtəlif konfessiyaların rəhbərləri və təmsilçiləri, ictimaiyyətin nümayəndələri, səfirlər iştirak ediblər.

Paul Riçard Gallager bildirib ki, Vladimir Feketenin yepiskop rütbəsinə layiq görülməsi çox sevindirici hadisədir və onun Azərbaycanda dinlərarası münasibətlərin inkişafı istiqamətində göstərdiyi xidmətlərə verilən qiymətdir. Bu, həmçinin Müqəddəs Atanın Azərbaycandakı katolik icmasına və bu ölkə ilə əlaqələrə verdiyi önəmin mühüm göstəricisidir.

Xatırladaq ki, Vladimir Fekete 2009-cu ildə Bakıda katolik kilsəsinə baş keşiş təyin edilib. 2011-ci ildən Apostol Prefekturasının prefekti vəzifəsində çalışır.



## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### Dəyişiklik

**Astara rayonu Sım kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 25 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 137

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Şöhrət Şıxverdi oğlu, Şiriyev Nəcibulla Teyyub oğlu, Böyükağayev Elnur Nəbi oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Həsənov Şirnəli Ataxan oğlu, Şiriyev İntiqam Nurəli oğlu, Cahangirov Əlişah Həbib oğlu, Mirəhmədov Vüqar Xasməmməd oğlu, Allahverdiyev Kamran Nizam oğlu, Allahyarov Qalib Hüseynağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 fevral 2018-ci il

**Şamaxı rayonu Mərzəndiyə kəndi «Şikar» məscidi dini icması**
Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 111

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Çingiz Lətif oğlu, Əsgərov Telman Xudayar oğlu, Xəlilov Həmid Nuru oğlu, Xəlilov Sahabxan Yusif oğlu, Nəhmətov Əzizxan Nurulla oğlu, Şaməmmədov Malik Heybət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, İslamov Vilayət Adil oğlu, Nəbiyev Məhəmməd Tarix oğlu, Məmişov Xanmusa Ağamusa oğlu, Şəfiyev Ağakərim Şaməddin oğlu, Babaşov Nazir Babaş oğlu, İsrəfilov Ağamurad Balamurad oğlu, İslamov Fərid Fuad oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 fevral 2018-ci il

**Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icması**
Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il
Qeydiyyat №-si: 100116B – 697

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın hüquqi ünvanı Bakı şəhəri, Xətai rayonu, S.Vəzirov küçəsi 6 kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti 23 hüquqi ünvan kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Paşayev Elçin Nazim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Xəlilov Rasim Xanlar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 fevral 2018-ci il

**Samux rayonu Samux şəhəri müsəlmanlarının dini icması**
Qeydiyyat tarixi: 30 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 498

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Tahir Həsən oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Namazov Eynulla Zakir oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 fevral 2018-ci il

**Şamaxı rayonu Acıdərə kəndi "Şeyx Eyyub" məscidi dini icması**
Qeydiyyat tarixi: 12 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 281

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Eyvazov Sabir Dövlət oğlu, Mahmudov Xankərəm Şahbudaq oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Zərbaliyev Fəxrəddin Suracəddin oğlu, Qocayev Yusif Xanbaba oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 fevral 2018-ci il

**Qax rayonuTasmalı kəndi "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 246

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qasımov İbrahimxəlil Rəhim oğlu, Eyvazov Mənəf İlyas oğlu, Ştayev Zahid Yarov oğlu, Yaqubov Abduləlim Abdulhamid oğlu, Həbilov Yusif Nəsib oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Məmmədov Zaur Eyvaz oğlu, Allahverdiyev Allahverdi Ramazan oğlu, Ştayev Mehman Zahid oğlu, Qasımov Həbib İbrahimxəlil oğlu, Həşimov Oruc Mənəf oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 fevral 2018-ci il

**Sabirabad rayonu Əhmədabad kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 01 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 192

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həmdiyev Xasan Həmdi oğlu, Rüstəmov Alim Rüstəm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Muxtasimov Aslan Japoraliyeviç, Xurşidov Sobit Soliyeviç, İsmayılov Vahid Xalis oğlu, Fəzliyev Alixan Şirin oğlu, Şaburov Murad Üzeyir oğlu, Həmdiyev Ridvan Həsən oğlu, İskandarov Taxirjan Salijanoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Həmdiyev Xasan Həmdi oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Həmdiyev Ridvan Həsən oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 fevral 2018-ci il

**Sabirabad rayonu Nərimankənd kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 27 oktyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 505

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qasımov Hüseynağa Cuma oğlu, Məmmədov Balaxan Qurban oğlu, Ağamalıyev Ağaqasım Əsgər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Nəsirov Yasəf Elyas oğlu, Səmədov Münasib Qənimət oğlu, İsmayılov Nəsimi Əlihüseyin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 fevral 2018-ci il

**Masallı rayonu Ərkivan qəsəbəsi "Hacı Mirkərim Ağa" məscidi dini icması**
Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 115

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Mirəyyub Qiyas oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Əliyev Mirdaməd Mirkərim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2018-ci il

**Masallı rayonu Qızılağac kənd məscidi dini icması**
Qeydiyyat tarixi:15 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 224

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ələkbərov Həbib Əhmədağa oğlu, Əsgərov İsrail Rəzi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Rəhimov Elşad Kitab oğlu, Səfərov Əhməd Haxverdi oğlu, Əliyev Arzuman Mirhüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Ələkbərov Həbib Əhmədağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Nəsrullayev Nüsrət Nəsrulla oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2018-ci il

**Həyat sözü-2 Sumqayıt xristian dini icması**
Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115C – 610
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səidova Gülişən Səidovna dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Paşayev Elçin Nazim oğlu, Paşayeva Afər Əlihəsən qızı, Cəbrayılova Aytən Elçin qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Savoskulov Pavel Pavloviç dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Paşayev Elçin Nazim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2018-ci il

**Lənkəran rayonu Liman şəhəri R.Rza küçəsində yerləşən məscidin dini icması**
Qeydiyyat tarixi: 23 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 483
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bayramov Zeytulla Əsəd oğlu, Abiyev Cabil Qardaşəli oğlu, İsrafilov Gülağa İbrahim oğlu, Məmmədov Rəhman Ağamoğlan oğlu, Məmmədov Udulla Udulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Xubəliyev Feyruz Böyükxan oğlu, Hadiyev Yusif Talıb oğlu, Niftiyev Fikrət Nifti oğlu, İsrafilov Saleh Gülağa oğlu, Quluzadə Toğrul Eldəniz oğlu, İsmayılov Fəxrəddin Qəribağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2018-ci il

**Göyçay rayonu Mirzəhüseynli kəndi məscidi dini icması**
Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 105
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəbiyev Söhrab Sədrəddin oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Mustafayev Ağaisa Feyzulla oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 19 fevral 2018-ci il

**Masallı rayonu Qədirli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 17 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 408
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Zeynalov Nadir Nurbala oğlu, Hüseynov Hüseyn Cahangir oğlu, Müseyibov Malik Fazil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Zeynalov Nurbala Xalıq oğlu, Zeynalov İlqar Nurbala oğlu, Tomarov Yolçu Abasqulu oğlu, Ağayev Vaqif Cankişi oğlu, Ağayev Əziz Niftulla oğlu, Zeynalov Nahid Nadir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Zeynalov Nadir Nurbala oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Zeynalov Nahid Nadir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 20 fevral 2018-ci il

**Zaqatala rayonu Dağlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 –201
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən "Zaqatala rayonu Əlibayramlı kənd məscidi" dini icmasının adı Dini qurumların dövlət reyestrindən çıxarılmış və "Zaqatala rayonu Dağlı kənd məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
"Zaqatala rayonu, Əlibayramlı kənd məscidi" dini icmasının hüquqi ünvanı Dini qurumların dövlət reyestrindən çıxarılmış və "Zaqatala rayonu, Dağlı kənd məscidi" dini icmasının hüquqi ünvanı kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Məmmədov Hacı İsa oğlu, Ömərov Şıxsa Şaban oğlu, Qurbanov Məmməd Qara oğlu, Camalov Rəşad Kamal oğlu, Şamxalov Şərif Əbdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Şabanov Abdulhəmid Mollahacı oğlu, Aşdiyev Zamir Öməroviç, Muradov Əziz Şahvəli oğlu, Xəlilov Məmməd Mirzə oğlu, Mirzəyev Kamal Nuru oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Rəhimov Məhəmməd Qafur oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Şabanov Abdulhəmid Mollahacı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 20 fevral 2018-ci il

## Ləğv olunan

**Göyçay rayonu Kürdəmiş kənd dini icması**
Qeydiyyat tarixi: 15.04.1998-ci il
Qeydiyyat №-si: 225
Göyçay rayonu Kürdəmiş kənd dini icması təsisçilərinin 25.01.2018-ci il tarixli, 03 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 06 fevral 2018-ci ildə qeydə alınıb.

**Masallı rayonu Seybətin kənd dini icması**
Qeydiyyat tarixi: 29.06.2000-ci il
Qeydiyyat №-si: 374
Masallı rayonu Seybətin kənd dini icması təsisçilərinin 25.01.2018-ci il tarixli, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 06 fevral 2018-ci ildə qeydə alınıb.

**Kürdəmir rayonu Qarabucaq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 15.05.2008-ci il
Qeydiyyat №-si: 1308Kül-487
Kürdəmir rayonu Qarabucaq kənd məscidi dini icması təsisçilərinin 15.01.2018-ci il tarixli, 03 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 06 fevral 2018-ci ildə qeydə alınıb.

**Qobustan rayonu Ərəbşahverdi kənd dini icması**
Qeydiyyat tarixi: 26.05.2003-cü il
Qeydiyyat №-si: 183
Qobustan rayonu Ərəbşahverdi kənd dini icması təsisçilərinin 22.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 06 fevral 2018-ci ildə qeydə alınıb.

**Göyçay rayonu Bəydövül kənd dini icması**
Qeydiyyat tarixi: 14.04.2000-ci il
Qeydiyyat №-si: 365
Göyçay rayonu Bəydövül kənd dini icması təsisçilərinin 26.01.2018-ci il tarixli, 03 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 19 fevral 2018-ci ildə qeydə alınıb.

**Şamaxı rayonu İkinci Caban kənd dini icması**
Qeydiyyat tarixi: 01.10.2004-cü il
Qeydiyyat №-si: 288
Şamaxı rayonu İkinci Caban kənd dini icması təsisçilərinin 27.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 19 fevral 2018-ci ildə qeydə alınıb.

**Lənkəran rayonu Yuxarı Nüvədi kənd dini icması**
Qeydiyyat tarixi: 10.01.2005-ci il
Qeydiyyat №-si: 304
Lənkəran rayonu Yuxarı Nüvədi kənd dini icması təsisçilərinin 29.01.2018-ci il tarixli, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 19 fevral 2018-ci ildə qeydə alınıb.

**Şamaxı rayonu Quşçu kənd dini icması**
Qeydiyyat tarixi: 07.07.2005-ci il
Qeydiyyat №-si: 1305A1-328
Şamaxı rayonu Quşçu kənd dini icması təsisçilərinin 26.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 19 fevral 2018-ci ildə qeydə alınıb.

**Lənkəran rayonu Türkəncil kənd dini icması**
Qeydiyyat tarixi: 10.01.2005-ci il
Qeydiyyat №-si: 305
Şamaxı rayonu Quşçu kənd dini icması təsisçilərinin 29.01.2018-ci il tarixli, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 19 fevral 2018-ci ildə qeydə alınıb.

## Elan

Kürdəmir rayonu Ərəbxana kənd dini icmasının (1305A1-330 nömrəli, 29.07.2005-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 24 fevral 2018-ci il tarixli ümumi yığıncağında 3 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Kürdəmir rayonu Ərəbxana kənd dini icmasına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 1305A1-330 nömrəli, 29.07.2005-ci il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayonu Axtaçı Sovetliyi Daykazımlı kənd dini icmasının (127 nömrəli, 18.12.1996-cı il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 fevral 2018-ci il tarixli ümumi yığıncağında 3 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Kürdəmir rayonu Axtaçı Sovetliyi Daykazımlı kənd dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 127 nömrəli, 18.12.1996-cı il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

İsmayıllı rayonu Tircan kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icmasının (317 nömrəli, 28.09.1999-cu il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 23.02.2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ağsu rayonu Gəgəli kənd dini icmasının (173 nömrəli, 23.04.2003-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 24.02.2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Xaçmaz rayonu Çılğır kənd dini icmasının (277 nömrəli, 09 iyul 2004-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 23 fevral 2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Xaçmaz rayonu Çılğır kənd dini icmasına Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş nizamnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Xaçmaz rayon məscidi dini icmasının (98 nömrəli, 22 iyun 1995-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 23 fevral 2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Xaçmaz rayon məscidi dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 98 nömrəli, 22.06.2004-cü il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Xaçmaz rayonu Müşkür kənd dini icmasının (3 nömrəli, 23 fevral 1994-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 23 fevral 2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Xaçmaz rayonu Müşkür kənd dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 3 nömrəli, 23.02.1994-cü il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

CƏMİYYƏT və DİN
№ 02 (319) / FEVRAL 2018-ci il

# Roma Papası insanların və ətraf mühitin bir-birinə qarşı olan zorakı münasibətini pisləyib



"Yaradılışın özü bu mərhəmət hissinin soyumasına səssizcə şahid olur. Torpaq laqeydlik, şəxsi mənfəət və maraqlar ucbatından tullantılarla zəhərlənib. Dənizlər özləri məcburi miqrasiyalar zamanı baş verən qayıq qəzaları nəticəsində dünyasını dəyişən saysız-hesabsız qurban qalıqlarını "udaraq" çirklənir. Tanrının yaratdığı və onu tərənnüm edən səma ölümə səbəb olan motorlarla çirklənib". İtaliyanın ANSA agentliyi xəbər verir ki, bu sözləri Roma Papası çıxışı zamanı deyib.

Papa Fransisk 2018-ci il müraciətində insanların və ətraf mühitin bir-birinə qarşı olan zorakı münasibətini pisləyərək bunu sevgi və mərhəmət hissinin yoxluğu ilə əlaqələndirib.

## İSRAİL ALİMLƏRİ XƏTTİNƏ GÖRƏ İNSAN ƏHVAL-RUHİYYƏSİNİ MÜƏYYƏN ETMƏYİ ÖYRƏNİBLƏR

Hayfa Universitetinin məlumatına görə, İsrail alimləri insanın əhval-ruhiyyəsinin onun xəttinə təsirini müəyyən ediblər. Bu, öz növbəsində emosional dəyişikliklərin aşkar edilməsində də istifadə oluna bilər.

Professor Sara Rozenblyumun bu kəşfi onun xətlə bağlı Parkinson xəstəliyinin əlamətlərini aşkar etməyi öyrəndiyi və insanın yalan, yaxud doğru danışdığını müəyyən etdiyi əvvəlki tədqiqatlarının davamıdır.

Yeni tədqiqatlar sərbəst olaraq üç qrupa bölünmüş 62 insan üzərində aparılıb. Alimlər onların hər birində müsbət, mənfi və neytral əhval-ruhiyyə yaratmağa çalışıblar. Sonra iştirakçılardan xətdəki azacıq dəyişiklikləri belə qeydə alan kompüterləşdirilmiş sistemin köməyi ilə ivrit mətninin paraqrafını yazmağı xahiş ediblər.

Universitetin məlumatında bildirilir: "Tədqiqatlar hər üç qrup arasında xəttin müxtəlif parametrləri üzrə fərqləri üzə çıxarıb. Məsələn, mənfi əhval-ruhiyyədə olan iştirakçılar müsbət, yaxud neytral əhvalı olanlarla müqayisədə hərfləri daha ensiz və yüksək sürətlə yazıblar. Tədqiqatçılar bu faktı böyük ehtimalla mənfi əhval-ruhiyyənin beyində koqnitiv gərginlik yaratdığı və bunun da öz növbəsində xəttə dəyişikliklərə səbəb olduğu ilə izah edirlər".

## NOBEL FONDU MÜKAFATIN LAUREATLARI ARASINDA QADINLARIN SAYINI ARTIRMAQ BARƏDƏ DÜŞÜNÜR

Nobel Fondu Stokholmda keçirilən görüşdə mükafata irəli sürülən namizədlər arasında qadınların sayının artırılması üzrə təkliflərin ciddi nəzərdən keçirildiyini elan edib. Bu təkliflər yeni laureatların seçimi sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər kontekstində müzakirə olunur.

Statistikaya görə, Nobel mükafatının təqdim edildiyi bütün dövr ərzində 892 nəfər laureat olub. Ancaq mükafata layiq görülənlərin yalnız 48-i qadındır ki, bu da ümumi sayın 5,4 faizi deməkdir.

Nobel Fondunun İdarə Heyətinin sədri Karl-Henrik Heldin jurnalistlərə bildirib ki, yaranmış vəziyyət problemdir. O vurğulayıb ki, mükafata namizəd irəli sürülməsi sisteminin təkmilləşdirilməsinin bir neçə variantı nəzərdə keçirilir. Çoxsaylı qadın namizədlərin irəli sürülməsi mümkün variantlardan biri ola bilər. Ancaq həmin məsələ ilə bağlı qəti qərar qəbul edilməyib.

**Yadigar söz**

**Viktor Hüqo,**
*fransız yazçısı*

**Çalışmaq – həyat, düşünmək isə işıqdır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Mart - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:55 | 07:15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |
| 2 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 3 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 4 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 5 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 6 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 7 | 05:46 | 07:06 | 1252 | 16:54 | 18:52 | 19:53 |
| 8 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 9 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 10 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 11 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 12 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 13 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 14 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 15 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 16 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 17 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 18 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 19 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 21 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 22 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 23 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 24 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 25 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 26 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 27 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 19:13 | 20:15 |
| 28 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:14 | 20:16 |
| 29 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:15 | 20:18 |
| 30 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:17 | 20:19 |
| 31 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:18 | 20:20 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## İSVEÇDƏ 8 MİN İLLİK MƏZARLIQ TAPILIB



İsveçdə arxeoloqlar daş dövrünə aid 8 min illik kəllələrin olduğu məzarlıq tapıblar.

Ölkənin Ostergetland bölgəsində yerləşən Motala şəhərində aparılan arxeoloji qazıntılar zamanı tapılan kəllələrin daş dövründəki həyat haqqında mühüm məlumatlar saxladığı bildirilib.

Stokholm Universitetinin araşdırmaçıları 8 min illik məzarda 10 böyük və bir körpənin skeletinin olduğunu qeyd ediblər. Onların ikisinin başında 47 santimetrlik ağac parçası aşkarlanıb. Alimlər bu insanların hücuma məruz qaldıqlarını ehtimal edirlər.

Qəbirlərin gölün altında olduğunu deyən elm adamları, qalıqların buna görə də qorunub saxlandığını diqqətə çatdırıblar.

## BİRBAŞA İNSAN ƏLİNƏ YAPIŞDIRILAN ELASTİK DİSPLEY HAZIRLANIB

Yapon alimlər birbaşa insan əlinə yapışdırılaraq istifadə edilən incə, elastik displey hazırlayıblar.




NHK telekanalı xəbər verir ki, displeyin qalınlığı cəmi 1 millimetrə bərabərdir. Onun rezin örtüyə bərkidilən mikroişıqlandırıcılardan ibarət olduğu bildirilir. Bu cür ən böyük displeyin ölçüləri 6x10 santimetr təşkil edir.

Həmin displey sadə işarələri və videoları əks etdirmək qabiliyyətinə malikdir.

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 365

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi: 2894